www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 3 dekabr 2018-ci il Bazar ertəsi № 258 (7147) Qiyməti 60 qəpik

**Xəbər**

## Qazaxda faciə: 22 yaşlı gənc intihar etdi

yazısı səh.14-də

**Gündəm**

### "Arif Əsgərovun evindən milyonları dəri kisədə daşıyırdıq" - cinayət dosyesi



**Sabiq nazir müavininin bacanağı:** "Onun evindən 21 milyon manat pul aparıb, istintaqa vermişəm..."

yazısı səh.10-da

### "Qadına münasibət dəyişməlidir" - kişinin arvadının başını qırxıb videoya çəkməsinə rəylər birmənalı deyil

yazısı səh.14-də

### Gürcüstan işğalçı ölkəyə nəfəslik aça bilər - Zurabişvili təhlükəsi

yazısı səh.9-da

### Ombudsman gedir - yerinə kimlər namizəddir...

yazısı səh.3-də

*Hərbi ekspert:*

### "İrəvanın Su-30CM-lərlə bağlı açıqlaması daxili auditoriyaya yönəlib"

yazısı səh.9-da

### 11 ayı geridə qoyduq: iqtisadiyyatımızda nələr yaşandı?

yazısı səh.4-də

*Eyyub Hüseynov:*

### "Rəngi çıxmırsa, pis qoxu gəlmirsə, sintetik geyimləri geymək olar"

yazısı səh.14-də

### Avro-2020-nin seçmə mərhələsində Azərbaycanın rəqibləri məlum oldu

yazısı səh.3-də

### Neft hasilatı azaldılır - Azərbaycanı gözləyən problem

yazısı səh.4-də

### Qocalıq bundan o yana başlayır - 9 faktor, 50 əlamət

yazısı səh.15-də

# GENERAL ELDAR MAHMUDOVUN İSTİNTAQA İFADƏSİ İLK DƏFƏ "YENİ MÜSAVAT"DA

Dövlətin milyonları necə mənimsənilib? Sabiq MTN başçısı ifadəsində hələ də vəzifədə olan generala işarə vurub; "Təxminən 80-90 milyon..."

yazısı səh.5-də




# Kremlin emissarları İrəvanda - Moskva "qum saatı"nı işə salır

Ermənistan kritik həftəyə girdi; seçki günü yaxınlaşdıqca işğalçı ölkədə anti-Rusiya ovqatı güclənir; Paşinyan İrəvanda Putinin adamlarını "iqnor" elədi - səbəb

yazısı səh.8-də



*Vahid Əhmədov:*

### "Azərbaycan indi 90-cı illərin Azərbaycanı deyil"

yazısı səh.7-də



*Zahid Oruc:*

### "Sosial media artıq 3-cü hakimiyyətliyə iddialıdır"

yazısı səh.6-da



Asif Əsgərov

### Adı rüşvətdə hallanan icra başçısı haqda yeni məlumatlar

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018



## Ermənistan yenidən prezident idarəçilik sisteminə qayıda bilər

**Ermənistan baş nazirinin vəzifələrini icra edən Nikol Paşinyan ölkənin yenidən prezident idarəçilik sisteminə qayıda biləcəyini istisna etməyib. Virtualaz.org TASS agentliyinə istinadən xəbər verir ki, bunu o, bu gün Sisyan şəhərində keçirilən "Mənim addımım" blokunun seçkiqabağı mitinqində bildirib.**

"Əgər parlament üsul-idarəsinin prezident idarəçilik sistemine əvəzlənməsinin labüdlüyünə əmin olsaq, bizə heç nə mane olmur, sizin razılığınızla bunu edəcəyik", - Paşinyan mitinqə toplaşanlara deyib.

O həmçinin əlavə edib ki, konstitusiyada dəyişilməsi mütləq olan bəzi maddələr var. "Konstitusiyamızda belə bir maddə var ki, deputat və nazir olmaq üçün şəxs son 4 il ərzində yalnız Ermənistan vətəndaşı olmalı və ölkə ərazisində yaşamalıdır. Deputatlarla bağlı bu müddəa özünü doğruldur, lakin nazirlərə gəlincə, imkan vermir ki, diasporun potensialından istifadə edək", - Paşinyan mövqeyini izah edib.

## Tarixin ən böyük haker hücumu: 500 milyondan çox adamın...



**Dünyada ən böyük otellər şəbəkəsi olan "Marriott İnternational"a qarşı tarixin ən böyük haker hücumu həyata keçirilib. Belə ki, 2014-cü ildən 2018-ci ilin sentyabr ayına qədər oteldə nə qədər insan qonaq olubsa, hamısının pasportlarının nömrəsi, adları və e-mail adresləri ələ keçirilib.**

Şirkətdən verilən açıqlamaya görə, hakerlər şirkətin "Starwood" markasının məlumat bazasına qanunsuz giriş ediblər. Nəticədə 2014-cü ildən 2018-ci ilin 10 sentyabrına qədər otelə gələn bütün qonaqların şəxsi məlumatlarını ələ keçirməyə nail olublar. Ələ keçirilən bilgilər arasında olduqca gizli məlumatların da yer aldığı bildirilir. Bundan başqa, şirkətin verdiyi açıqlamaya görə, bilgiləri ələ keçirilən müştərilərin sayı 500 milyondan çoxdur.

"Marriott İnternational"dan verilən açıqlamaya görə, baş vermiş hadisədə oteldə çalışanların da əlinin olduğu ortaya çıxıb. Lakin istintaq davam etdiyi üçün onların adları mediaya açıqlanmır. Şirkətin yüksək vəzifəli şəxsi olan Arne Sorenson bildirib ki, bu cür olayın yaşanması şirkət rəhbərliyinə olduqca pis təsir edib: "Bütün zərər çəkən müştərilərimizdən üzr istəyirik. Onların hər birinə bildiririk ki, baş verən hadisə bizə gələcəkdə bu kimi səhvləri etməmək üçün böyük dərsdir".

Xatırladaq ki, "Marriott İnternational" 2016-cı ildə "Starwood" şirkətini 12.2 milyon dollara alaraq, dünyanın ən böyük otel zəncirinin sahibi olub.

❑ **Toğrul İSMAYIL,**
**Musavat.com**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# ABŞ-ın 5-ci donanmasının komandanı müəmmalı şəkildə öldü

**ABŞ Hərbi Dəniz Qüvvələrinin İran və Suriya da daxil olmaqla geni Fars körfəzi regionundakı əməliyyatlara cavabdeh olan 5-ci donanmasının komandanı Bəhreyndəki iqamətgahında ölü tapılıb. Virtualaz.org xəbər verir ki, bu barədə ABŞ Hərbi Dəniz Qüvvələrinin hərbi-dəniz əməliyyatlarının rəhbəri Con Riçardson bəyan edib.**



"Komanda, bu gün mənim kədərli vəzifəm bundan ibarətdir ki, sizə 5-ci donanmanın komandanı, vitse-admiral Skott Stirininin ölümü barədə məlumat verim. O, bu gün Bəhreyndə ölü tapılıb" - Riçardson bildirib.

5-ci donanmanın mətbuat xidmətindən bildiriblər ki, admiralın ölümünün səbəbi hələ məlum deyil. Hazırda HDQ-nin və Bəhreyn Daxili İşlər Nazirliyinin təhqiqatçıları müvafiq tədbirlər həyata keçirirlər. Bununla belə, qeyd olunur ki, komandanın qəsdən öldürüldüyünü deməyə əsas verən səbəb yoxdur. İlkin versiyalar bundan ibarətdir ki, vitse-admiral Stirini "təbii səbəblərdən" dünyasını dəyişib.

Skott Stirinin ölümündən sonra onun səlahiyyətləri müavini, kontr-admiral Pol Şilzə həvalə edilib.

5-ci donanma Fars körfəzi və Hind okenanının bir hissəsinə cavabdehdir, qərargahı və əsas bazası Bəhreyndə yerləşir. Bu donanma İraqa qarşı hərbi kampaniyalarda, habelə "əl-Qaidə" və İŞİD-ə qarşı əməliyyatlarda əsas rol oynayıb. Donanmanın tərkibinə ABŞ Hərbi Dəniz Qüvvələrinin Atlantik və Sakit okean donanmalarının gəmiləri daxildir. Sərəncamında təyyarədaşıyan gəmilər, yüzlərlə müxtəlif tipli döyüş təyyarələri və vertolyotları, xüsusi təyinatlı qüvvələr və dəniz piyadaları var.



## ABŞ-ın sabiq prezidenti Corc Buş (ata) Texasda dəfn ediləcək

**ABŞ-ın 41-ci prezidenti Corc Buş (ata) Texasda, Kollec-Steyşen şəhər universitetinin onun adını daşıyan prezident kitabxanasının ərazisində dəfn ediləcək. "Report" xəbər verir ki, bu barədə universitetin saytında məlumat verilib.**

Qeyd edilir ki, sabiq dövlət başçısı ailə üzvlərinin - 7 ay əvvəl vəfat etmiş xanımı Barbaranın və 1953-cü ildə 3 yaşında dünyasını dəyişmiş qızı Robinin məzarlarının yanında torpağa tapşırılacaq. Universitetin tələbələri, müəllimləri və əməkdaşları matəm mərasimini izləyə biləcəklər. Lakin mərasim geniş ictimaiyyətə qapalı olacaq. Universitetin bütün binaları həmin gün bağlı olacaq.

ABŞ-ın keçmiş dövlət başçısı Corc Buş (ata) ötən cümə günü Hyustonda vəfat edib. Sabiq dövlət başçısı 95 yaşında dünyasını dəyişib.

## "Selfi psixi pozuntudur" - psixoloq

**"Selfie" sözü tərcümədə "mən", "özüm" mənasını verir. Lakin müasir həyatımızda bu sözə özünün şəklini çəkmək kimi izah vermək olar. Əlbəttə, insan öz şəklini çəkən zaman heç bir psixoloji patologiya nümayiş etdirmir. Lakin hər bir marağın bir dərəcəsi var ki, bir zaman normal sayılan, o biri dərəcədə artıq anormal sayılır". Bunu psixoloq Aygün Cəfərova deyib (teleqraf.com).**



Psixoloqun sözlərinə görə, bir müddətdən sonra insanda hər hansı problem müəyyən ola bilər, lakin artıq meyl pozuntusuna çevrildiyindən, şəkil çəkməyin dayandırılması cəhdləri uğursuzluqla sona çatır:

"Selfiemaniyanı bəzən narkomaniyaya bənzətmək olar: insan hər gün dozanı (şəkil sayını) daha çox artırmaq istəyir. Bir qrup alim bu xəstəliyi narsisizm, digərləri isə meyl və adət pozuntularına aid edir ki, biz də bunu sırf meyl pozuntusu kimi qiymətləndiririk. Lakin sual yaranır ki, niyə məhz selfi, adi şəkil yox? Narsisizm mərhələsini hər bir insan inkişaf dövründə keçdiyi kimi, bizim instinktlər bazasında bu, özünü qoruma hissinin bir hissəsi kimi göstərə bilir".

A.Cəfərova qeyd edib ki, selfitisin üç səviyyəsi müəyyən edilib: "Birincisi, sərhəddə olanlar: gündə ən azı, 3 dəfə selfi çəkənlər, amma hamısını sosial mediaya qoymayanlar. İkincisi, kəskin: gündə ən azı, 3 selfi çəkib hər birini sosial mediaya qoyanlar. Üçüncüsü, xroniki: selfi çəkmək üçün nəzarət edilə bilməyən bir istək duyan, həddən artıq selfi çəkən və gündə ən az 6 dəfə sosial mediada bölüşənlər. Bunun səbəblərinə özünənam əskikliyi, diqqətçəkmə istəyi daxildir. Özünü qiymətləndirmənin aşağı olması da bura daxildir ki, öz imkanlarını aşağı qiymətləndirmə və özünü təsdiq etmək üçün selfi çəkənlər də mövcuddur".

Psixoloqun sözlərinə görə, selfidən müdafiə mexanizmi kimi istifadə edənlər də var: "Bu insanlar özlərini sosial mediada xoşbəxt, şən, pozitiv biri kimi qələmə vermək üçün bundan istifadə edirlər. Gün ərzində 5 selfi şəklini çəkib sosial şəbəkədə nümayiş etdirmək, SOS siqnalıdır. Bu xəstəliyin müalicəsi psixi pozuntular kimi kompleks yanaşma tələb edir. Medikamentoz müalicə ilə yanaşı, psixoterapiyanın müxtəlif növləri istifadə edilə bilər. Ən əsası isə həyat tərzini dəyişmək, həyata yeniliklər qatmaq, daxili resurslarını tanımaqla insanı bu xəstəlikdən uzaqlaşdırmaq mümkündür".

## Bu gün Bakıda yağmursuz hava olacaq

**Ölkə ərazisində dekabrın 3-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 5-7°, gündüz 9-11° isti təşkil edəcək.**

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz, səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 1° şaxtadan 4°-dək isti, dağlıq ərazilərdə 5-7° şaxta, gündüz 6-11° isti təşkil edəcək. Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında əsasən yağmursuz keçəcəyi, ayrı-ayrı yerlərdə duman olacaq. Gecə 2-6° şaxta, gündüz 0-3° isti təşkil edəcək.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında əsasən yağmursuz keçəcək, səhər bəzi yerlərdə duman, çiskin olacaq. Gecə 2-5° isti, gündüz 7-11° isti olacaq. Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Gecə 1° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 0-3° isti təşkil edəcək.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecə 3-6° isti, gündüz 7-12° isti təşkil edəcək. Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında gün ərzində arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Gecə 4-6° isti, gündüz 7-10° isti, dağlarda gecə 0-4° isti, gündüz 5-7° isti təşkil edəcək.

# Adı 30 min manat rüşvətdə hallanan başçı haqda yeni şok məlumatlar

## Asif Əsgərov barəsində səslənən rüşvət ittihamlarına susqunluq göstərir, onun müavini Qurban İsmayılov isə ölkə rəhbərinin tapşırıq və tövsiyələrini qulaqardına vurur

**Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov neçə gündür mətbuatın gündəmindən düşmür. Onun adı deputatdan 30 min manat rüşvət istəməkdə hallandırılır.**

Xatırladaq ki, Milli Məclisin üzvü Adil Əliyev "Yeni Müsavat"ın canlı yayınında çıxış edərkən bildirmişdi ki, Bakı rayonlarından birinin icra başçısı vətəndaşdan bir qapı açmaq üçün 30 min manat rüşvət tələb edib. Həmin rüşvət verilmədikdə, qapı açmağa icazə verməyib. Vətəndaşın bu xahişini isə başçıya deputat şəxsən çatdırıbmış.

Adil Əliyev bildirib ki, əgər bir icra başçısı millət vəkilinin sözünü eşitmirsə, üstəlik, onun xahişinə, müraciətinə rəğmən rüşvət tələb edirsə, görün onda sıravi vətəndaşlarla necə davranılır. Deputat ad çəkməsə də mətbuatın araşdırması zamanı bəlli olub ki, sözü gedən icra başçı Asif Əsgərovdur.


Asif Əsgərov


Qurban İsmayılov

"Yeni Müsavat" bu günlərdə məsələ ilə bağlı yeni bilgilər əldə edib. Etibarlı mənbənin redaksiyamıza bildirdiyinə görə, həqiqətən də Adil Əliyev seçicilərindən birinin Nəsimi rayon ərazisindəki evinə əlavə qapı açılması üçün icra hakimiyyətinə müraciət edib. Mənbəmiz bildirir ki, başçı deputatdan bu iş üçün 50 min manat "şirinlik" istəyib. Sonra isə "sənin xətrinə, bu işi 30 minə həll edərəm" deyib. Deputat isə onun bu cavabından xeyli təəccüblənib və başçı ilə arasında kəskin mübahisə yaranıb. "Yeni Müsavat"a bildirildiyinə görə, iş o həddə çatıb ki, deputatla başçı arasında az qalsın, əlbəyaxa dava düşəcəkmiş. Onların ortaq dostlarından biri araya girib, münaqişəni yatırda bilib.

Adı bu cür qalmaqalda hallanan icra başçısı isə hələ də bu haqda mətbuata açıqlama verməyib. Asif Əsgərov indiyədək bu iddiaları, ittihamları nə təsdiq edib, nə təkzib.

"Yeni Müsavat"ın müxbiri məsələ ilə bağlı Nəsimi Rayon İcra Hakimiyyəti başçısı ilə danışmaq üçün dəfələrlə cəhd edib, lakin qarşı tərəfin kontaktdan yayınması ucbatından bu mümkün olmayıb.

Bu günlərdə Asif Əsgərovun 1-ci müavini Qurban İsmayılovla danışıb, ondan məsələyə münasibət öyrənmək istədik. Q.İsmayılov əməkdaşımızla kobud danışaraq, telefonu onun üzünə qapadıb.

Fürsətdən istifadə edib, Qurban müəllimin diqqətinə bəzi məqamları çatdırmaq istəyirik. Əvvəla, vəzifəli şəxs qanunun tələblərinə görə jurnalistin suallarına cavab verməyə borcludur. İkincisi, vəzifəli şəxs özünü tutduğu posta uyğun aparmalıdır. Ən pis halda, ona verilən sualı axıra kimi dinlədikdən sonra cavab verib-verməyəcəyini qərarlaşdırmalıdır. Ona müraciət edən mətbuat orqanının nümayəndəsindən cavab üçün vaxt istəməlidir. Jurnalistin sözünü yarımçıq qoyub, telefonu qapatmaq yolverilməzdir. Üçüncüsü, icra hakimiyyəti başçısı, onun müavinləri yerlərdə prezidenti təmsil edirlər. Onları prezident o vəzifəyə ona görə təyin edir ki, xalqla işləsinlər, narazılıq olanda həll etsinlər, problemləri yoluna qoysunlar. Onların vəzifələrinin siyahısına mətbuatla normal əməkdaşlıq da daxildir. Qurban İsmayılov isə sadalanan halların hamısını kobud şəkildə pozur.

Ölkə prezidenti dəfələrlə məmurlara təvazökar olmaları ilə bağlı tövsiyələr verib. Prezident hər fürsətdə məmurlara deyir ki, xalqla normal rəftar edin, insanları incitməyin, xalqın xidmətçisi olun. Ölkə başçısının məmurlara əsas tövsiyələrindən biri də mətbuatla, jurnalistlərlə normal şəkildə əməkdaşlıq etmələri haqda olur. Prezidentin bu tövsiyələrinə əməl edən məmurlar da var, Qurban İsmayılovun timsalında bu tövsiyələri qulaqardı edənlər də.

İnanırıq ki, bu yazıdan sonra Asif Əsgərov barəsində yazılanlarla bağlı geniş açıqlama verəcək. İcra başçısının belə bir niyyəti olarsa, "Yeni Müsavat" onu dinləməyə, mövqeyini dərc etməyə hazırdır.

❑ **Aydın ASLAN,**
**"Yeni Müsavat"**




## Avro-2020-nin seçmə mərhələsində Azərbaycan millisinin rəqibləri məlum oldu

**Dünən İrlandiyanın paytaxtı Dublin şəhərində 2020-ci ildə keçiriləcək futbol üzrə Avropa Çempionatının püşkatma mərasimi keçirilib. Report xəbər verir ki, püşkatmanın nəticələrinə görə 55 komanda 10 qrupda mübarizə aparacaq.**

Nəticələr aşağıdakı kimidir:

**A Qrupu**
1. İngiltərə
2. Çexiya
3. Bolqarıstan
4. Monteneqro
5. Kosovo

**B Qrupu**
1. Portuqaliya
2. Ukrayna
3. Serbiya
4. Litva
5. Lüksemburq

**C Qrupu**
1. Niderland
2. Almaniya
3. Şimali İrlandiya
4. Estoniya
5. Belarus

**D Qrupu**
1. İsveçrə
2. Danimarka
3. İrlandiya
4. Gürcüstan
5. Cəbəllütariq

**E Qrupu**
1. Xorvatiya
2. Uels
3. Slovakiya
4. Macarıstan
5. **AZƏRBAYCAN**

**F Qrupu**
1. İspaniya
2. İsveç
3. Norveç
4. Rumıniya
5. Farer adaları
6. Malta

**G Qrupu**
1. Polşa
2. Avstriya
3. İsrail
4. Sloveniya
5. Makedoniya
6. Latviya

**H Qrupu**
1. Fransa
2. İslandiya
3. Türkiyə
4. Albaniya
5. Moldova
6. Andorra

**İ Qrupu**
1. Belçika
2. Rusiya
3. Şotlandiya
4. Kipr
5. Qazaxıstan
6. San-Marino

**J Qrupu**
1. İtaliya
2. Bosniya və Herseqovina
3. Finlandiya
4. Yunanıstan
5. Ermənistan
6. Lixtenşteyn

Avro-2020-nin final mərhələsinin püşkü 1 dekabr 2019-cu ildə atılacaq. Həmin vaxt Millətlər Liqasından vəsiqələrin sahibləri müəyyənləşməyəcəyindən, onlar 1- 4 pley-offlarının qalibləri kimi adlandırılacaqlar.

Qeyd edək ki, 2020-ci il iyunun 12-dən iyulun 12-dək keçiriləcək final mərhələsinə Azərbaycan, İngiltərə, Macarıstan, Almaniya, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Hollandiya, Rusiya, Rumıniya və Şotlandiya ev sahibliyi edəcək. Bakı Olimpiya Stadionunda qrup mərhələsinin 3, 1/4 final mərhələsinin isə 1 oyunu keçiriləcək.

# Ombudsman gedir - yerinə kimlər namizəddir...

## Fazil Mustafa: "Kifayət qədər layiqli insan var"
## Mirvari Qəhrəmanlı: "İlk ağlıma gələn şəxs vəkil Adil İsmayılovdur"

**Səlahiyyət müddəti 2017-ci il martın 5-də bitən və müddəti bir il uzadılan İnsan Haqları üzrə müvəkkil (Ombudsman) Elmira Süleymanovanı kimin əvəzləyəcəyi barədə müzakirələr davam edir. Artıq bir şəxsin adı hallanmağa başlayıb. Bu Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, YAP Nəsimi rayon təşkilatının sədri, deputat Məlahət İbrahimqızıdır.**

Lakin Məlahət xanım yayılan xəbərləri təkzib edib. O, bunun cəfəngiyat olduğunu bildirərək, bu xəbərləri yayan saytları məsuliyyətli olmağa çağırıb.

Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa yeni ombudsmanın kim olacağı barədə ölkə prezidentinin iradəsinin əsas rol oynadığını söylədi: "Müəyyən dərəcədə ombudsmanı təyin edən prezidentdir. Ona görə də burada kimin ombudsman olacağını söyləmək çətindir. Kifayət qədər layiqli insanlar var. Bunların arasında QHT-lərdə, hüquq sahəsində çalışan xeyli sayda insanlar var ki, burada fəaliyyət göstərə bilərlər. Bir də ombudsman şərt deyil ki, hökmən qadın olsun. Burada kişi də ombudsman ola bilər. Özü də biliyi və bacarığı ilə cəmiyyət arasında tanınan istənilən şəxs ombudsman olması mümkündür. Konkret ad çəkməkdə çətinlik çəkirəm. Hər halda, qeyd etdiyim keyfiyyətləri özündə cəmləşdirən şəxsin ombudsman olması daha yaxşı olar. Elmira xanımın mümkün olan qanunlar çərçivəsində indiyə qədər normal fəaliyyət göstərdiyini düşünürəm. Çünki ombudsmanın da səlahiyyətləri kifayət qədər geniş deyil. Düzdür, deputatdan daha çox imkanlara sahibdir. Ən azından həbs yerlərinə baş çəkmək, müəyyən qanun pozuntularının qarşını almaq imkanı var. Azərbaycan reallığında fəaliyyət göstərən bir ombudsman olduğunu düşünürəm".


Elmira Süleymanova

Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı E.Süleymanovanı əvvəlcədən bir QHT rəhbəri kimi tanıdığını söylədi: "Onun savadına və bacarığına bələdəm. Buna şübhəm də yoxdur. Onun müstəqil olmadığına da bələdəm. Düşünürəm ki, ombudsman müstəqil olmalıdır. Elə bir şəxs olmalıdır ki, heç olmasa fəaliyyət göstərəndə 30% müstəqil olsun. Yeni olacaq bu şəxs prezident tərəfindən təyin olunacaq. Parlamentdən xanımlar içərisindən birinin təyin olunacağı deyilir. Amma onların heç birində müstəqillik görmürəm. Burada isə əsas olan müstəqillikdir. Çünki problemlərə ombudsmanın sərbəst yanaşmağı çox vacibdir. Belə bir şəxsin olmağını çox istərdim. Bir də yeni ombudsmanın da xanım olmasını arzulayıram. Digər vəzifələrdə də xanımların təmsilçiliyini hər zaman istəmişəm. Çünki qadınlar korrupsiyadan daha çox uzaq olurlar. Amma unutmayaq ki, bu ölkədə vəzifələrdə təmsil olunan qadınların müstəqil olmaq imkanları çox azdır. Mən kimi yeni ombudsman görmək istəyərdim? Açığı, özümün ombudsman olmağımı arzulamıram. Çünki müstəqil adamam. Hər zaman da müstəqil olmağı seçmişəm. QHT kimi də müstəqiləm. Buna görə də çox xoşbəxtəm. Qapazaltı olmaq mənə lazım deyil. Həmkarlarımı gözdən keçirirəm, kimin ombudsman ola biləcəyini düşünürəm. İlk ağlıma gələn şəxs vəkil Adil İsmayılovdur. Qadınlardan kimsə mənə irad tuta bilər. Amma açıq deyim ki, qadınlar içərisindən kimsəni ombudsman görmürəm. Bəlkə də bir gün əvvəl bu sualı versəydiniz, düşünüb nələrsə deyərdim. Lakin qəfil sual verdiniz. Burada ilk ağlıma gələn Adil müəllim oldu. O həm savadlıdır, həm də müstəqildir. Vəkil olaraq da insan haqlarını müdafiə edən şəxsdir. Hüquqşünaslar içərisində ilk ağlıma gələn o oldu".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

**2018-ci ilin 11 ayı geridə qaldı. Ötən 11 ay ərzində Azərbaycanın milli valyutası olan manatın məzənnəsində dəyişiklik nəzərə çarpmadı. ABŞ-ın Federal Ehtiyatlar Sistemi dolların uçot dərəcəsində dəyişiklik etsə də, qonşu dövlətlərin valyutaları devalvasiyaya uğrasa da, Azərbaycan manatının dollara nisbətdə məzənnəsi 1.70 AZN olaraq qalmaqdadır.**



# 11 ayı geridə qoyduq: iqtisadiyyatımızda nələr yaşandı?

## İqtisadçı: "İxracımızın 1 milyard 94 milyon dolları qeyri-neft sektorunun payına düşür"

Lakin neftin qiymətlərində sabitlik müşahidə edilmədi. Belə ki, ötən 11 ay ərzində bahalaşmaqda olan neft qiymətləri, son bir ay ərazində aşağı düşdü. Belə ki, Londonun "İCE" Birjasının məlumatına görə, "Brent" markalı neftin qiyməti ay ərzində 21,6 faiz ucuzlaşaraq bir bareli 59,17 dollar olub. Texas sortu adlandırılan ABŞ-ın "WTI" markalı nefti ay ərzində 32,62 faiz ucuzlaşaraq bir bareli 51,56 dollara düşüb. Azərbaycanın "AzeriLight" markalı nefti ay ərzində 20 faiz ucuzlaşaraq bir bareli 61,10 dollar olub.

Bəs ölkə iqtisadiyyatında son 11 ay ərzində daha nələr dəyişdi? "Yeni Müsavat"a danışan iqtisadçı Vüsalə Əhmədova ölkənin qeyri-neft sektorunda ixracına diqqət çəkərək bildirdi ki, rəsmi rəqəmlərə görə, ilin 8 ayı ərzində 12,9 milyard ABŞ dolları ixrac həyata keçirilib: "Bunun isə 1 milyard 94 milyon dolları qeyri-neft sektorunun payına düşür. Qeyri-neft sahəsi üzrə ixrac olunan məhsullara nəzər salsaq, bunlar əsasən pomidor, qabığı təmizlənmiş meşə fındığı, xurma, alma, xiyar və kartofdur. Çox cüzi nar şirəsi, tomat pastası və şərab yer alır. Göründüyü kimi, ölkəmizin qeyri-neft sektorunun ixrac lokomotivi hələ də yaş meyvə və tərəvəzlərdir. İxrac olunan ərzaq malları arasında əlavə dəyəri yüksək olan məhsulların azlıq təşkil etməsi isə digər bir problemdir. Ölkənin ixrac potensialının yüksəldilməsi baxımından konservləşdirilmiş məhsullar, şərab, tomat, qənnadı məmulatları, meyvə qurusu, cemlər, mürəbbələr və s. kimi əlavə dəyəri yüksək məhsulların ixracı vacibdir. Əfsuslar olsun ki, ölkəmizdə innovasiya, dizayn, markalaşma və texnologiyaya diqqət yönəldilmir. Qeyri-neft sahəsi üzrə ən çox ixrac həyata keçirdiyimiz ölkə Rusiyadır ki, onunla da qida təhlükəsizliyi baxımından bir sıra əngəllərlə üzləşirik. Xatırladım ki, ötən illərdə Rusiyanın "Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidməti" Azərbaycandan 18 ton pomidor idxalının qarşısını almışdı. Azərbaycandan idxal olunan alma və xurmada da zərərli faktorlar aşkarlanmışdı. Eynilə Avropa ölkələri də (İspaniya və s.) Azərbaycandan meşə giləmeyvəsi və fındıq idxalına qadağa qoymuşdu. Bütün bu kimi halların yaşanmaması və "Made in Azerbaijan" adı altında xarici bazarlarda daha çox təmsil olunmaq üçün ilk olaraq beynəlxalq qida təhlükəsizlik standartlarının tətbiqi mütləqdir".

Ekspertə görə, 2018-ci il üzrə neft qiymətləri müəyyən qədər qənaətbəxş olsa da, 2019-cu ildə təkrar eniş gözlənilir: "ABŞ şist ehtiyatlarındakı artım, o cümlədən, Rusiya və Səudiyyə Ərəbistanının hasilatı artırması bunu deməyə əsas verir. Xammal ixracatçı ölkələr anlamalıdırlar ki, risk zonasında yerləşirlər, onların qısa müddətli zənginləşməsi əbədi böhranlar gətirə bilər. Hələ Sovet dövründə ölkəmizdə neftə alternativ olaraq inkişaf etdirilmiş olan pambıqçılıq müstəqillikdən sonra demək olar ki, tənəzzülə uğradı. Son dövrlərdə Azərbaycanda yenidən pambıqçılığa maraq artsa da, nəticələr bir o qədər də ürəkaçan deyil. Mərkəzi Bankın sədri Elman Rüstəmov bu ilin 9 ayı üzrə ölkədə orta illik inflyasiya göstəricisinin 2,6% təşkil etdiyini bildirdi. 2018-ci ilin 9 ayı üzrə istehlak məhsulları və xidmətlərin qiymətlərinə nəzər salsaq görərik ki, 2017-ci ilin eyni dövründə baş vermiş kəskin bahalaşmanın ardınca bu il də 4%-lik bahalaşma müşahidə edilib. O cümlədən, ərzaq məhsullarında 4,5%, qeyri-ərzaq mallarında 4,3%, əhaliyə göstərilən ödənişli xidmətlərdə 2,9% bahalaşma baş verib. İl ərzində qoyun və mal əti, zeytun, marqarin, kərə və qarğıdalı yağları, portağal, naringi, banan, alma, armud, kivi, qoz, fındıq, şabalıd, göyərti, pomidor, xiyar, soğan, kartof, qəhvə, çay, kakao, düyü və yumurta kimi ərzaq məhsullarının qiymətlərində də kifayət qədər artım olub. Nəzərinizə çatdırım ki, ölkəyə idxal olunan kartofun rüsumu sentyabr ayında 15%-dən 30%-ə qaldırılıb. Nəticədə kartof məhsulunun qiymətində 10-15%-dən çox artım yaşanıb. Bütün bu hallar Azərbaycanda inflyasiyanın göstərilən rəqəmlərdən çox olduğunu deməyə əsas verir".

İqtisadçı bank sektorundakı vəziyyətə də toxundu: "Bu ilin sentyabr ayı üzrə ölkə banklarında problemli kreditlərin məbləği 1 milyard 749 milyon manat təşkil edib. İlin əvvəli ilə müqayisədə isə problemli kreditlərin həcmi 7,5% yüksəlib. Bank kreditlərinin 60%-i dollardadır, bu isə 10 milyard dollar təşkil edir ki, onun da 2,5 milyard dolları istehlak kreditləridir".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Neft hasilatı azaldılır - Azərbaycanı gözləyən problem

## Ekspert: "Neftin qiymətini 55-60 dollar arasında saxlamağa çalışacaqlar"

**Neftin qiymətinin aşağı düşməsi, neft istehsalçısı olan ölkələri düşünməyə vadar edib. Belə ki, artıq Rusiya məsələ ilə bağlı mövqeyini dilə gətirib. Rusiyanın energetika naziri Aleksandr Novak deyib ki, neft hasilatının azaldılması gələn ilin birinci və ikinci rüblərini əhatə edəcək. Nazirin sözlərinə görə, istehsalçı ölkələrlə əldə ediləcək razılıq neft bazarının xeyrinə olacaq.**



Qeyd edək ki, dekabrın 6-da Vyanada OPEK Nazirlər Şurasının 175-ci iclası keçiriləcək. Toplantıda OPEK üzrə hasilatın azaldılması ilə bağlı qərar qəbul olunması gözlənilir. İclas çərçivəsində Rusiya ilə OPEK-in əməkdaşlıq müqaviləsi imzalaması da planlaşdırılır.

"Yeni Müsavat"a danışan iqtisadçı Natiq Cəfərli Vyana görüşünün olduqca əhəmiyyətli odluğunu dedi: "Burada OPEK və qeyri-OPEK ölkələrinin, o cümlədən də Rusiyanın iştirakı ilə toplantı gözlənilir. OPEK-in idarə heyəti ilkin təklif kimi hasilatın gələn ildən başlayaraq, növbəti dəfə 1.3 milyon barel azaldılmasını təklif edir. OPEK ölkələrindən isə bu təkliflə bağlı, hələ ki ciddi reaksiya yoxdur. G-20 toplantısı çərçivəsində Rusiya prezidenti Putinlə Səudiyyə şahzadənin görüşü olub. Son məlumatlar belədir ki, hələ ciddi razılığa gəlinməyib. İlkin niyyət kimi belə bəyanat olub ki, neft qiymətləri ciddi şəkildə izləniləcək və lazım gələrsə, müdaxilə ediləcək. OPEK-ə daxil olmayan ölkələrin əsas oyunçusu bəllidir ki, Rusiyadır. Ona görə də bu görüşün nəticələri çox şeyi deyəcək. Burada maraqlı cəhət ondan ibarətdir ki, Səudiyyə hasilatın azaldılmasına qol qoymasa, yəni buna razılıq verməsə, OPEK-in qərarı çıxmayacaq. Çünki OPEK-in ən vacib ölkəsi Səudiyyədir. OPEK-in istehsal etdiyi neftin 34 faizinə yaxınını Səudiyyə istehsal edir. Səudiyyə ona görə bu məsələdən çəkinir ki, ABŞ-ın məsələ ilə bağlı çox sərt mövqeyi var. Hətta "NOPEK" adlı qanun layihəsi də hazırlayıb, Ədliyyə Nazirliyindən qeydiyyatdan keçiriblər. Bu layihə artıq yanvar ayından etibarən Konqresə təqdim edilə bilər. Səudiyyə anlayır ki, belə bir qanun qəbul olunarsa, Amerika məhkəmələrinin verdiyi qərarın təzminatını OPEK çərçivəsində ən çox onlar ödəməli olacaq. Ona görə də burada sərt addımlar atmaqdan çəkinir. Son zamanlar Qaşıqçı olayından sonra Amerikanın Səudiyyəyə qarşı daha sərt davranmasının səbəblərindən biri də, hesab edirəm ki, neft qiymətləri ilə bağlıdır. Trampın əsas hədəflərindən biri neft qiymətlərinin aşağı salınması, Amerikada benzinin ucuzlaşdırılması və 2020-ci il seçkilərində daha çox xal toplamasıdır".

İqtisadçı hesab edir ki, Vyanada kəskin qərar olmayacaq: "Lakin istər OPEK , istərsə də Rusiya tərəfindən ciddi sözlü müdaxilələr olacaq. Bu müdaxilələr bazara psixoloji təzyiq göstərəcək. Deyəcəklər ki, əgər qiymət daha da aşağı düşərsə, hasilatın sərt azaldılması ilə bağlı müdaxilələr olacaq. Ciddi sözlü müdaxilələrlə bazarda qiymətlərin sabitləşməsinə çalışacaqlar. Putinin də açıqlaması oldu ki, 60 dollar civarında olan neft, həm istehsalçıları, həm də istehlakçıları qane edə bilər. Hazırda brent markalı neftin qiyməti 58 dollar civarındadır. Təxminən bu hədlərdə sabitləşdirməyə çalışacaqlar. Əsas hədəf kimi qiymətlərin daha da aşağı düşməməsinə çalışacaqlar, nəinki qiymətləri qaldırmağa".

İqtisadçı proseslərin fonunda Azərbaycanın vəziyyəti barəsində də danışdı: "Azərbaycan Rusiya ilə birgə OPEK-ə daxil olmayan ölkələr sırasında bu danışıqlarda iştirak edir. Azərbaycanın hasilatı çox aşağıdır və buna görə də daha da azaldılması bazarlara ciddi təsir göstərəcək amil deyil. Yeri gəlmişkən, Azərbaycanda hasilat təqribən 28 min barel artım var. Lakin bu da bazara ciddi təsir edəcək amil deyil. Ona görə də Azərbaycan da gözləyəcək ki, OPEK tərəfindən hansı qərarlar veriləcək. Çox güman ki, verilən qərarı dəstəkləyəcəyik. Çünki Azərbaycanın qərarlara və dünya bazarına təsir etmə mexanizmi yoxdur. Hazırda dünya neft bazarında 3 ölkənin ciddi söz demək imkanı var. Bu Amerikadır ki, hasilat 11.4 milyon bareldir, Səudiyyə Ərəbistanıdır ki, 11. 1 milyon barel və Rusiyadır ki, hasilatı 11.2 milyon bareldir. Dünyada gündəlik hasil olunan neftin 30 faizini bu 3 ölkə verir. Düşünürəm ki, Vyanadakı görüşdən sonra bazarda neftin qiymətini 55-60 dollar arasında saxlamağa çalışacaqlar. Amerikanın istəyi isə qiymətlərin təqribən 50 dollara qədər aşağı düşməsidir. Belə olarsa, Amerikada benzin ucuzlaşar, Tramp ciddi xal qazanar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018




# General Eldar Mahmudovun istintaqa ifadəsi ilk dəfə "Yeni Müsavat"da

## Dövlətin milyonları necə mənimsənilib? Sabiq MTN başçısı ifadəsində hələ də vəzifədə olan generala işarə vurub; "Təxminən 80-90 milyon..."

**Eldar Mahmudovun şəriki, sabiq nazirin milyonlarına nəzarət etmiş Sahib Ağayevin məhkəməsi davam etdirilir. Bakı Ağır Cinayətlər Məhkəməsində mənimsəmədə ittiham edilərək hakim qarşısına çıxarılan Sahib Ağayevin cinayət işi üzrə məhkəmə iclasına hakim Samir Əliyev sədrlik edir. Məhkəmənin baxış iclası keçirilərkən hakimlər heyəti belə bir qərar qəbul etdi ki, proseslər bundan sonra qapalı keçirilsin.**

Bildirək ki, bu iş üzrə zərərçəkmiş tərəflər Vergilər Nazirliyi və Dövlət Təhlükəsizlik Xidmətidir. Külli miqdarda mənimsəmədə və vergidən yayınmaqda təqsirləndirilən Sahib Ağayev barəsində cinayət işinin əsas diqqət çəkən məqamı Eldar Mahmudovun bu iş üzrə şahid qismində dindirilməsidir.

Sabiq MTN başçısı şahid qismində ona görə dindirilib ki, onun rəhbərlik etdiyi nazirlikdə dövlət əhəmiyyətli layihənin icrası üçün ayrılan vəsaitin 30 milyona yaxını mənimsənilib və başqa bir şirkətin hesabına köçürülərək ölkədən çıxarılıb.

İttihama görə, Sahib Ağayevin rəhbərlik etdiyi şirkət 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunları ərəfəsində Milli Təhlükəsizlik Nazirliyinin istəyi ilə təhlükəsizliyin təmin edilməsi məqsədilə xüsusi avadanlıqların gətirilməsi və həmin sistemin qurulmasını həyata keçiribmiş. İmzalanmış müqavilə şişirdilərək 30 milyon manat Sahib Ağayevin xarici şirkətinin hesabına köçürülüb. Bu işdə Sahib Ağayevlə yanaşı, Kanada vətəndaşı Kazem Askarinin də adı keçir.

Sahib Ağayevin və ona himayədarlıq edənlərin əməli MTN ləğv edildikdən sonra üzə çıxıb. Bundan sonra Sahib Ağayev axtarışa verilib. O, Qazaxıstanda saxlanılaraq Azərbaycana gətirilib.

Qeyd edək ki, S.Ağayev Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə, külli miqdarda törədildikdə) və 213-cü (vergidən yayınma) maddələri ilə ittiham edilir.

Xatırladaq ki, S.Ağayev ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq rəhbəri Eldar Mahmudovun iş ortaqlarından və yaxın adamalarından biri olub. Xəbər verdiyimiz kimi, bu cinayət işi üzrə E.Mahmudov istintaqda şahid qismində ifadə verib.

"Yeni Müsavat" qəzeti eksklüziv olaraq sabiq nazirin istintaqa ifadəsinin bəzi təfərrüatlarını əldə edib. Bildirək ki, bu ifadə "MTN əməliyyatları" başlayandan bu günə qədər Mahmudovun ictimaiyyətə məlum olan ilk ifadəsidir.

Xatırlayırsınızsa Eldar Mahmudovun adı 2015-ci ildən başlayan "MTN əməliyyatları" çərçivəsində dəfələrlə çəkilib. Həm həbs edilən MTN-çilər, həm də zərərçəkmiş kimi tanınan bir çox iş adamları məhkəmədə ifadə verərkən Eldar Mahmudovun dindirilməsini tələb edirdilər. Lakin məhkəmə bunu zəruri hesab etməyərək Eldar Mahmudovu məhkəməyə dəvət etmədi. Akif Çovdarov, Sübahir Qurbanov və digər MTN generallarının işində də bir çox epizodlarda Eldar Mahmudovun adı keçsə də onun istintaq orqanı tərəfindən dindirilmədiyi üzə çıxmışdı.

Lakin indi məlum olub ki, Mahmudov dostu Sahib Ağayevin əməllərinə görə istintaqda dindirilib. Onu da xatırladaq ki, bir neçə dəfə Mahmudov Baş Prokurorluğun Ağır Cinayətlərə qarşı İstintaq İdarəsindən çıxarkən görüntülənmişdi. Məlumata görə, sabiq nazir məhz bu işə görə dindirilmiş, ifadəsi alınmışdı.

Əldə etdiyimiz eksklüziv məlumata görə, Mahmudov dindirilən zaman bir zamanlar şəriklik etdiyi Sahib Ağayevin əməllərindən xəbərsiz olduğunu söyləyib.

Eldar Mahmudov ifadəsində bildirib ki, nazir kimi rəhbərlik etdiyi Milli Təhlükəsizlik Nazirliyinin əsasnaməsinə uyğun olaraq, üzərinə düşən vəzifələri icra edib. General-polkovnik hərbi rütbəsində olan Mahmudov hazırda işləmdəyini deyib.

Suallara cavabında Eldar mahmudov "Main İnvestment LTD" MMC-nin rəhbəri, Kanada vətəndaşı Kazem Askarini təxminən 1998-ci ildən tanıdığını deyib. Mahmudov dindirilən zaman Kazemlə hansı şəraitdə tanış olduğunu xatırlamayıb və bildirib ki, Kazem sahibkar kimi müxtəlif sahələrdə bizneslə məşğul olub. Daha sonra o, şərikinə qarşı irəli sürülmüş ittihamlarla bağlı danışıb. Qeyd edib ki, 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunları ərəfəsində təhlükəsizlik sisteminin qurulması üçün araşdırmalar aparılbar.

Mahmudovun sözlərinə görə, onların maraqlarına uyğun olan təhlükəsizlik sistemi Kanadada olub. Necə təsadüfdürsə, elə həmin təhlükəsizlik sisteminin qurulması işini də Mahmudovun 1998-ci ildən tanıdığı Kazem bilirmiş. Kazem Kanadada olan şirkəti vasitəsi ilə bu işləri görməyə başlayıb. Mahmudov söyləyib ki, Kazem Kanada vətəndaşı olduğu üçün və informasiya texnologiyaları ilə işlədiyi üçün nazirliyin Beynəlxalq Əlaqələr İdarəsinin əməkdaşlarına bu işlə məşğul olmağı tapşırıb. Amma Mahmudov bu işi hansı işçisinə tapşırdığını xatırlamayıb.

Suallara cavabında Mahmudov bildirib ki, Kazemin şirkəti ilə bağlanmış müqaviləyə əsasən o, Kanadada olan təhlükəsizlik sistemini Azərbaycanda quracaqmış. Müqavilənin 2013-cü ildə imzalandığını deyən Mahmudov bunun üçün Kazemin şirkətinə ödənilən ümumi məbləği əvvəlcə xatırlamadığını söyləyib.

Müqavilənin qiymətinin bir neçə dəfə dəyişdirilməsi, hər dəfə də məbləğin artırılması ilə bağlı suallara cavab verən Mahmudov deyib ki, bu prosesləri də tam olaraq xatırlamır. Amma təsdiqləyib ki, müqavilə bir neçə dəfə dəyişdirilib və qiymətlər artırılıb. Bunu da belə izah edib ki, sonradan görüləcək işlərin həcmi artırmış. Müqavilə üçün ödəniləcək məbləğin Maliyyə Nazirliyi ilə razılaşdırıldığını deyən Mahmudov qeyd edib ki, müqavilə imzalandıqdan sonra MTN-in Maddi Texniki Təminat baş İdarəsinə də məlumat verilib.

"Müqaviləyə ayrılacaq məbləğ Maliyyə Nazirliyi ilə "Main İnvestment LTD" arasında razılaşdırılıb. Daha sonra da bizə məlumat verilib. Məbləğ MTN-nin büdcəsinə köçürüldü. Bundan sonra da "Main İnvestment LTD" ilə MTN arasında müqavilə imzalandı. Bu barədə mənə mütəmadi məlumat verilirdi. Həmin məbləğ MTN-nin büdcəsindən ayrılmırdı. Buna görə də müqavilənin dəyəri ilə çox da maraqlanmırdım. Məbləğ Maliyyə Nazirliyindən ayrıldıqdan sonra şirkətin bank hesabına köçürülüb" - , deyə Mahmudov söyləyib.

Təkrar suallara cavabında Mahmudov deyib ki, təxminən müqavilə üçün 80-90 milyon manat ayrıldığını xatırlayır. Bundan sonra isə Mahmudov şərikinin 30 milyonu necə mənimsəməsi ilə bağlı suallara cavab verib. İttihamda göstərilir ki, Sahibin də iştirakı ilə "Main İnvestment LTD"yə ayrılan 90 milyona yaxın vəsaitin 30 milyona yaxını Dominikan Respublikasında qeydiyyatda olan "Preim Desig and Patenting.SA" şirkətinin bank hesabına köçürülüb.

Amma Mahmudov suallara cavabında bundan xəbərsiz olduğunu deyib. O bildirib ki, "Main İnvestment LTD" ilə MTN arasında imzalanmış müqaviləyə əsasən şirkətə ilk olaraq avans kimi layihənin dəyərinin 30 faizi ödənilib. Bundan sonra isə MTN-də yaradıllan komissiya görülən işlərə nəzarət edərək qalan məbləği mərhələli şəkildə ödəyib. Mahamudov ifadəsində bu layihənin icrasına hazırda vəzifədə olan generallardan birinin rəhbərlik etdiyini bildirib.

Bu işdə şübhəli və suallar doğuran məqam həyata keçirilən layihənin məbləğinin həqiqətən də 90 milyon manat dəyərində olub-olmamasıdır. Layihənin ümumi dəyərinin bir neçə dəfə şişirdildiyi bildirilir. Maraqlıdır ki, bu layihəyə milyonlar ayrılsa da, heç bir mütəxəssis tərəfindən araşdırmalar aparılmayıb.

Elə Mahmudova da bu barədə suallar verilib. Soruşulub ki, layihənin dəyərini araşdırmaq üçün mütəxəssislər cəlb edilibmi? MTN tərəfindən heç bir mütəxəssisin cəlb edilmədiyini deyən Mahmudov bu mütəxəssislərin Maliyyə Nazirliyi tərəfindən təyin edildiyini bildirib.

Daha sonra Mahmudov mətbuatda "şəriki" kimi təqdim edilən və hazırda həbsdə olan Sahib Ağayev haqda sualları cavablandırıb. O, Sahib Ağayevin Qazaxıstanda yaşadığını və bizneslə məşğul olduğunu söyləyib. Mahmudov söyləyib ki, həyat yoldaşı Ağayevin xanımı ilə rəfiqə olub və tanışlıq da buradan başlayıb.

Əldə etdiyimiz məlumata görə, Mahmudov ailəvi tanışı olan Sahib Ağayevin oğlu Əlini də MTN aparatında işə götürübmüş. Amma özü vəzifədən çıxarıldıqdan sonra Əli Ağayev də işdən çıxarılıb. O da məlum olub ki, 30 milyona yaxın vəsaitin köçürüldüyü və Dominikanda qeydiyyatdan keçmiş şirkət də Sahib Ağayevin imiş. Amma Mahmudov bundan və şirkətin fəaliyyətindən də xəbərsiz olduğunu söyləyib.

Mahmudov Sahib Ağayevlə Kazemin əməkdaşlığından və birgə fəaliyyətindən də xəbərsiz olduğunu deyib. Sabiq nazirin bu ifadəsindən belə məlum olur ki, ailəvi dostu Sahib Ağayev və 1998-ci ildən tanıdığı Kazem birləşərək ona da yalan danışıblar. Qulağa inandırıcı gəlməsə də belə çıxır ki, onların ikisi birləşərək Mahmudova "atıblar".

Elə bundan əvvəl baş tutan "MTN əməliyyatları"nda da məlum olmuşdu ki, Mahmudov MTN-də baş verən bütün hadisələrdən "xəbərsiz" imiş...

❑ **İlkin Muradov, Musavat.com**

YENİ MÜSAVAT
N 258(7147) 3 dekabr 2018



# Kim qırxıb başını, salıb bu kökə?

**Samir SARI**

**Bizə belə mövzuyla gəlin, qardaşlar. Qaqaşlar demişkən, tema budu, yoxsa filan sektora dövlət büdcəsindən ayırmalar elə oldu, tibbi sığorta belə getdi, ay nə bilim, vergilər artırılır, azad sahibkarlığın inkişafı ləngiyir və s...**

Sən xəbər ver, görək, gənc və gözəl xanımı tərəfindən xəyanətə məruz qalan, çəkdiyi videoda üzü görünməyən kişi qadının başını qırxmaqda düz eləyib, ya yox? Bəlkə, baş qırxmağı düz eləyib, amma video çəkməkdə düz eləməyib? Bunlardan danış. Bu daha maraqlıdır... Yoxsa nə Qarabağ, nə münaqişə, nə futbol, nə "Qarabağ"? Başqa vaxt bu da çox müzakirə olunardı, amma başı qırxılmış qadının vaqiəsinin yanında bundan danışan kimdir.

3 gündür camaat bu mövzuda yazır, danışır. Peşəkar media hələ mövzuya girişməyə macal tapmayıb, amma sosial media söhbətin çürüyünü çıxarıb. Yəqin ki, bu gün-sabah telekanallar başı qırxılmış qadını və baş qırxmış kişini studiyaya dəvət edəcəklər.

Prinsipcə, hüquq-mühafizə orqanları da hərəkətə keçməlidirlər, baş qırxmış kişini peysərləyib içəri basmalıdırlar və profilaktika üçün onun öz başını da qırxmalıdırlar.

Sovet vaxtında beləydi, şübhəli şəxs qismində içəri düşənin başını hökmən qırxırdılar. İki gündən sonra adamın günahsız olduğu bilinirdi və onu ağzıbirdən buraxırdılar, amma adam bayıra daz halda çıxırdı. Ən böyük igidlik isə təcridxanaya düşmək və oradan başı qırxılmamış çıxmaq idi.

Bu, nə məsələdirsə, namus-qeyrət məsələsidir. İnsanın başındakı bir qom tük və atın yalı-quyruğu nədənsə lap qədimlərdən namus simvolu sayılır. Atının quyruğu kəsilmiş adamlar yazıq heyvanı güllələyərmişlər.

Xüləs, mentalitet incəliklərinə vara-vara mətləbdən uzaq düşdük. Təcili şəkildə qayıdıb gələk diletant dəlləyin yanına.

Videodan görünürdü ki, adam səliqəli işləməyib. O, dünənə qədər "sevgili canan", "uşaqların anası" dediyi qadının saçını daha abırlı qırxa bilərdi. Amma o, qəsdən, qisas almaq, xanımı biabır etmək üçün qeyri-məsum qadının başını, sanasan, qoyun qırxılığıyla qırxıb.

Minlərlə adamın bu hadisəyə verdiyi reaksiyadan isə görünür ki, adam öz-özünü biabır edib. Hələ ağlı kəsib ki, öz sifətini videoya çəkməyib, yoxsa küçədə camaat onun üzünə... baxmazdı.

Hazırda adamın hərəkətinə cinayət məcəlləsinin müddəaları prizmasından baxanlar da var, sırf mental dəyərlər mövqeyindən yanaşanlar da. Hələ ortada qaqaş prizması da var, deyirlər: "Adam özünü peysər çıxarıb".

Qadınlar birmənalı olaraq kişini qınayırlar, deyirlər, o xanım nə qədər bağışlanmaz qəbahətə yol veribsə də, bu cür davranışa layiq deyildi.

Kişilərin bir yarısı münaqişəyə "ay ..., arvadını başqa kişiylə tutmuşdunsa, öldürəydin də" kimi qəddar mövqedən yanaşır, o biri humanist yarısı da "səs-küy salmadan boşamalıydı" deyə mövqe bildirirlər. Bəzi mentalitet qoruqçuları isə humanistlərə belə bir sərt sual ünvanlayırlar: "Sizin öz arvadınız belə etsəydi, nə edərdiniz, öldürərdiniz, başını qırxardınız, yoxsa sakitcə boşayardınız?"

Bax, bu sualı kim kimə üzbəüzdə versə, bişəkk, ortada bir kəsilmiş qulaq və ya yortulmuş qarın söhbəti də olar. Çünki bizim camaat belə söhbətlərdə çox həssasdır.

Amma gerçəkdən də hadisəyə soyuqqanlı yanaşmaq və xəyanətə məruz qalmış kişinin bu hərəkəti edərkən (arvadının başını qırxıb, videosunu çəkmək) məqsədinin nə olduğunu aydınlaşdırmaq lazımdır.

Yəqin ki, o, öz reputasiyasını zərbə altında qoymaqla qadını biabır etməyi düşünüb. Ya da özünün əslində namuslu adam olduğunu, indi isə zərərçəkmiş statusuna düşdüyünü göstərmək istəyib.

Hər nədirsə, hiss olunur ki, o niyyətinə çata bilməyib. Xanımın saçı 2-3 aya yerinə gələcək və onu küçədə, ictimai yerlərdə tanıyan, "aaa, sən o başı qırxılmış qızsan" deyən olmayacaq. Amma o kişi bu arvadını boşayıb, yenisini alsa da, işlədiyi kollektivdə onun keçmişindən xəbər tutacaqlar və bəzən zarafata salıb üzünə, bəzən də eşitdirmək üçün yanında "qayçı" söhbəti edəcəklər, dalınca isə ayrı söz qoşacaqlar.

Belə epizodlar (xəyanət etmiş arvadı və ya kişini videoya çəkmək) bəzi Hollivud filmlərində olur. Amma bir fərq var. Orada milyonçu ər-arvad sərvəti özlərinə sərfəli şəkildə bölmək üçün qarşı tərəfin xəyanətini sübut etmək istəyir və videonu da dəlil-sübut kimi çəkdirir.

Görünür, bizim "xəyanət videosu" çəkənlər mövzunu yanlış anlayıblar. Ortada bölünəsi milyonlar yoxkən, özlərini 10 milyonun dilinə-dişinə salıblar.

**Azərbaycanda sosial medianın əhəmiyyəti getdikcə artır. Son vaxtlar xeyli sayda insan bu mediada fəaliyyətini genişləndirərək, çoxlu sayda izləyici cəlb etməyə nail olub. Maraqlıdır ki, belələrinin əksəriyyəti müxalif yönlü, xüsusilə də xarici ölkələrə mühacirət etmiş şəxslərdir. Onlar sosial medianın imkanlarından yararlanaraq hakimiyyət əleyhinə fikirlərini, mövqelərini paylaşır, müxtəlif verilişlər hazırlayırlar. İqtidarın isə hələ ki, bu meydanda mövqeyi xeyli zəif görünür.**




# "Sosial media artıq 3-cü hakimiyyətliyə iddialıdır"

## Zahid Oruc: "Tənqidçiləri bloklamaq, sosial medianı qapatmaq təsirli vasitə sayıla bilməz"

Sosial mediada ilk tənqidi çıxışlar başlanan zaman iqtidar mənsublarının qızğın müzakirələrinə səbəb oldu. Hətta bir çoxları Azərbaycanda sosial şəbəkələrin bağlanmasını təklif etdilər. Bu təkliflər reallaşmadı, əvəzində bəzi iqtidar təmsilçiləri sosial mediada tənqidi fikirlər paylaşan şəxslərə qarşı müxtəlif qruplar yaratdılar, onlara kəskin cavablar verdilər. Bəzən isə bu profillər anonim olurdu. Lakin bu yolla mübarizə də gözlənilən effekti vermədi. İqtidar yenə də tənqidçi sosial mediaya uduzmuş kimi görünür.

Niyə Azərbaycan hakimiyyəti müxalifyönlü sosial media ilə mübarizədə daha effektiv, öz mövqeyini gücləndirən tədbirlər həyata keçirmir? Bu geniş meydanın boş buraxılması nədən qaynaqlanır?

Sualları cavablandıran Milli Məclisin üzvü Zahid Oruc bildirir ki, sosial medianın informasiya məkanında özünə geniş meydan qazandığını etiraf etmək lazımdır: "Bugünkü dövrün idarəetmə sistemi nəinki ötən əsrin ortaları, heç 80-90-cı illəri ilə də müqayisə edilə bilməz. Çünki informasiya, onun istehsalı, yayılması və obrazlı desək, ölümü çox qısa zamanda baş verir. Belə olan halda rəqabət şərtlərini ödəməlisən ki, bu məkanda liderliyini qoruyub saxlayasan. ABŞ prezidenti Avraam Linkolnun ölüm xəbəri ölkə ərazisində 7 günə yayılmışdı. Amma bu gün Donald Tramp tvitlərdə öz fikirlərini nəinki ABŞ-a, bütün dünyaya anındaca çatdıra bilir. Hamı başa düşür ki, bu gün ekrandan, efirdən verilən xəbərin yayılma arealı ilə sosial şəbəkələrdəki sürət eyni deyil. Bu, hər bir idarəçiliyin xarakterini dəyişdirir. İran kimi xeyli mühafizəkar ölkədə ali dini şuranın rəhbərinin də, prezidentin də xüsusi hesabları yaradılıb, adminlər ölkənin siyasəti ilə bağlı mühüm paylaşımları auditori-



yaya çatdırırlar. Bu, əksər ölkələrdə belədir. Düşünmək ki, kiçik bir radio dalğaları ilə insanları təsir dairəsində saxlayacaqsan, bu, alınmayacaq. Eləcə də televiziya şəbəkələr qarşısında mövqeyini kəskin şəkildə itirib. Bu mənada, 4-cü hakimiyyət sosial şəbəkələrin xeyrinə dəyişib. Media 4-cü hakimiyyətdirsə, sosial media artıq 3-cü hakimiyyətliyə iddialıdır. Bəzi hallarda qanun quruculuğunun əlamətlərini görürsən, bəzi vaxtlar prokurorluq orqanlarının, məhkəmə orqanlarının, istintaqın funksiyasına iddia edilir. Yəni sərhədlər itib. Və sən bu qaydalarla mütləq hesablaşmalısan. Ona görə də mən parlamentdə təkliflə çıxış etmişdim ki, hər bir dövlət qurumunun sosial şəbəkələrdə hesabı yaradılmalıdır, mövqeyini cəmiyyətə çatdırmalıdır. Bilirsiniz ki, troll məfhumundan çox istifadə edilir, bəzən müxalif yönlü şəxslər də ondan yararlanır. Amma youtube kanalının bir fenomen kimi dünya miqyasında böyük nüfuz qazandığı ikinci bir faktdır. "Youtube"rlik getdikcə öz məkanını genişləndirir, paylaşımların bəzən milyonlarla baxış sayları mövcuddur. Bu üzdən televiziyalar özləri məcbur olub bu şəbəkələrdə hesablarını yaradırlar ki, meydanı boş qoymasınlar".

Deputat bildirir ki, son vaxtlar yalnız müxalif yönlü insanlar deyil, adi bir narazı vətəndaş bəzən sosial şəbəkələrdə öz mövqeyini tirajlamağa, iqtidar əleyhinə özünə tərəfdar qazanmağa nail ola bilir: "Bu, dünyəvi-psixoloji bir reallıqdır. Niyə? Çünki həmişə hakimiyyətlər bir arxayınçılığa, özgüvənə malik olurlar. Onlar hesab edirlər ki, verilən qərarlar, atılan addımlar, sosial tədbirlər vətəndaş məmnunluğunu yaradır. Və hansısa narazıların aktiv görünməsi bütöv ölkə mənzərəsi deyil, hakimiyyət sosial şəbəkələrdə müəyyənləşmir, iqtidarı biz orada seçmirik. Bu üzdən, müəyyən bir qüvvənin sosial şəbəkəyə axması, orada möhkəmlənməsi, polemikaların orada aparılması sanki hakimiyyətin könüllü şəkildə o meydanda mövqeləri kimlərəsə verməsi kimi təzahür edir. Elə bilin ki, Azadlıq meydanını adamlar real coğrafiyada əldə edə bilmədiklərindən, gerçək xalq kütlələrini, hakimiyyətin mövqeyindən fərqli düşünənləri öz çevrələrində daşımağı bacarmadıqlarından, daxili narazılıqlar səbəbindən birləşə bilmədiklərindən gördüyünüz bu mənzərə meydana çıxıb. Mənim fikrimcə, biz bütün hallarda başa düşməliyik ki, yeni dövrün fenomenini kənarda qoymaq olmaz. Əgər biz informasiyanın nüvə silahından daha böyük gücə malik olduğunu deyiriksə, hansı ki, həqiqətən belədir, o silahla yalnız ölkə daxilində mövqeyini paylaşanların deyil, eləcə də müxtəlif düşmən qüvvələrin təsiri altında olanların çevrəsindən ölkəyə yönələn təsiri qarşısında dayanmalısan. Başqa halda onlar bir gün o virtuallıqdan boy götürüb gerçək həyata çıxacaqlar - bu, müxtəlif ölkələrin təcrübəsində dəfələrlə baş verib. Buna görə də mən hökumətin sosial mediaya 21-ci əsrin boş xülyası, keçici xəstəliyi kimi yanaşmaların korreksiya etməsini istəyirəm".

Deputatın sözlərinə görə, ölkə rəhbərliyi, hakimiyyətdə təmsil olunan bir çox şəxslər sosial şəbəkələrin rolunu qəbul edirlər: "Bu gün ənənəvi agentlik, xəbər mərkəzi olmaq funksiyası dəyişib, keçib. Hər adam öz smartfonu ilə həm daşıyıcı ola bilir, həm yayıcı və sair".

Bəzi hakimiyyət nümayəndələrinin təklif etdiyi kimi, sosial şəbəkələrin məhdudlaşdırılması yaranmış vəziyyətdə çıxış yolu ola bilərmi? Z.Oruc hesab edir ki, bu, effektiv yol olmayacaq: "Dünya təcrübəsi göstərir ki, belə mübarizə tamam əks-effekt verir. Cəmiyyət düşüncəsini məhdudlaşdırmaq qeyri-realdır. Əgər sən insanların necə düşünməli olduqlarını da sanksiyalaşdırmaq istəyəcəksənsə, onda həmin mövqe sahibləri, obrazlı desək, yerin altına keçəcək. Baxın, "Müsəlman qardaşları" necə meydana çıxdı, özünə tərəfdar topladı? Məncə, 21-ci əsr Azərbaycanına bu, qətiyyən lazım deyil. Bloklamaq, sosial medianı qapatmaq təsirli vasitə sayıla bilməz. Sadəcə, bu fenomenin rolunu dərk etmək, onun öz vasitələrindən istifadə etməklə mövqelərini daha geniş areala yaymaq lazımdır. Zatən, hakimiyyət və idarəetmə ictimai rəy liderliyidir, informasiya məkanında öncüllüyü və birinciliyi saxlamaqdır. Əgər sənin ziyanına olan tendensiyaları durdurmursansa, bu, şübhəsiz ki, kütlələrin nəzərində hansısa rəylər doğurur. Və bu, uzunmüddətli qaydada davam edirsə, sistemləşir, qərarlaşır, hərəkətlərə yansıyır, sabah da artıq konkret bir situasiya ilə üz-üzə qalmış olursan. Halbuki bir daha söyləyirəm, bu gün ölkənin Qarabağ davasını aparan kimdir? Cənab prezident İlham Əliyev. Onun qədər müxtəlif xarici təsirlərə, təzyiqlərə və bağlı qapılar arxasındakı mövqelərə dirənişi yenə də Ali Baş Komandan göstərir. Silahlı qüvvələri o təşkil edir, ən müasir texnologiyaları o ölkəyə gətirir. Bölgədə bütün dövlətlər sanksiyalar məruz qaldığı dövrdə Azərbaycanı bu iqtisadi izolyasiyalardan qoruyur və uğurlu bir mövqe seçir. Bütün bunların hamısı sosial mediaya daşınsa və hər gün çoxlu sayda insanın iştirakıyla təqdim edilsə, dediyiniz o insanlar başlarında böyük bir zireh görərlər, müqavimət gücünü hiss edərlər. İndi onlar hesab edirlər ki, böyük bir qüvvədirlər".

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# "Azərbaycan indi 90-cı illərin Azərbaycanı deyil"

## Vahid Əhmədov: "1992-ci ildə baş nazirin 1-ci müavini işləyəndə Azərbaycanda 80 min avtomobil var idi, indi 1 milyon 300 mini keçib"



**"Heç kim deyə bilməz ki, 10-20 gündən sonra neftin qiyməti necə olacaq"**

**"Baxış bucağı"**

**Milli Məclisin plenar iclaslarında 2019-cu ilin dövlət büdcəsi haqqında qanunun müzakirələri bu il ilk dəfə üç oxunuşda müzakirəyə çıxarıldı. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vahid Əhmədovla müsahibəmizdə öncə büdcə zərfini dəyərləndirməyə çalışdıq. Həmsöhbətimiz digər məsələlərlə bağlı da kifayət qədər maraqlı fikirlər söylədi.**

***- Vahid bəy, üç oxunuşda müzakirə olunan büdcə haqqında qanunu necə dəyərləndirirsiniz? Budəfəki büdcə 2018-ci ilin büdcəsindən nə ilə fərqləndi?***

- Büdcə müzakirələri bu il ilk dəfə üç oxunuşda keçirildi. Bu, çox böyük əhəmiyyət kəsb edir. Çünki üç oxunuşda danışmaq üçün plenar iclasda geniş imkan yaranır və bir yox, bir neçə dəfə danışmaq mümkün olur. 2019-cu ilin dövlət büdcəsini qəbul etdik, yəqin ki, bir neçə gün ərzində cənab prezident təsdiqləyəcək və qüvvəyə minəcək. Bu büdcə 2018-ci ilin dövlət büdcəsindən fərlənir. Fikir verdinizsə, elə müzakirələrin yekunu zamanı da büdcəyə 410 milyon vəsait əlavə edildi. Bu da əsasən qaçqınlar və məcburi köçkünlərlə əlaqədardır. Bizi narahat edən məsələlərdən biri təhsillə bağlı idi. Bu sahəyə 11 milyon manat ayrıldı. Maliyyə naziri, cənab Samir Şərifov qeyd etdi ki, 2019-cu ildə ödənişsiz təhsil alanların sayı 20 faiz artırılacaq. Bu, bizimçün çox önəmlidir. Çünki biz Təhsil kreditləri haqqında qanun layihəsi təqdim etmişik.

***- Səhv etmirəmsə, həmkarınız Əli Məsimli ilə birgə...***

- Bəli, bir yerdə hazırlamışıq. Bu qanun hələlik qəbul olunmayıb. Düzdür, komitədə müzakirəsi olub, amma banklar tərəfindən müəyyən maneələr olduğu üçün qəbulu gecikir. Lakin biz belə hesab edirik ki, bu qanun mütləq qəbul olunmalıdır. Çünki insanlar təhsillə bağlı çox böyük əziyyət çəkirlər. Bu gün elə universitet var ki, orada təhsil haqqı müəyyən fakültələrdə 4 min manatı da keçib. Gənclərimiz bu vəsaiti ödəyə bilmədiklərindən məcbur olurlar təhsili yarımçıq buraxıb getsinlər. Ona görə də təhsil krediti haqqında qanunun qəbulu vacibdir. Beynəlxalq təcrübədə də belə bir qanunlar var. Amma istənilən halda dövlət büdcəsinin 410 milyon manat əlavə vəsaitin artırılması çox önəmli məsələdir.

***- Sizi başqa hansı məsələlər narahat edirdi? Hökumət təkliflərinizi nəzərə aldımı?***

- Əlbəttə, vergi sistemi ilə əlaqədar məsələ bizi çox narahat edirdi və bu sistemdə aparılan islahatlar tərəfimizdən müsbət qarşılandı. Biz İqtisadi siyasət komitəsi olaraq ayrıca vergilər naziri, cənab Mikayıl Cabbarovla 3 saat yarımlıq görüş keçirdik. O görüşdə maddə-maddə Vergi Məcəlləsinə olan dəyişiklikləri müzakirə etdik. Müəyyən fikirayrılığı da oldu, amma ümumi razılığa gəldik.

***- Buradan sahibkarlara nə deyə bilərsiniz? Bu dəyişikliklər onlar üçün nə vəd edir?***

- Birincisi, Vergi Məcəlləsinə edilən dəyişikliklərdə ən diqqətçəkən məqam gəlir vergisi ilə əlaqədardır. Yəni qeyri-neft sektorunda, qeyri-dövlət sektorunda işləyənlər 8 min manata qədər maaş alırlarsa, onlar gəlir vergisindən azaddır. Bu dəyişikliklər 7 illik qəbul olunub. Hansı ki, bu vaxta qədər həmin insanlar sahibkarla birgə 22 faiz, üstəgəl 3 faiz, üstəgəl 14 faiz, üstəgəl 1 faiz işsizliyə görə, ümumilikdə 40 faiz vergi ödəyirdilər. Amma bundan sonra 26 faiz vergi ödəyəcəklər, 14 faizi ödəməyəcəklər. Bu, nədən ötrü lazım idi? Çünki həmin sahədə ikili mühasibat "uçot"u var idi. Həmçinin vergidən yayınma halları çox geniş idi. Məsələn, min manat maaş alan insana 200 manat yazırdılar, 200-ün vergisini ödəyirdilər, 800 manatı nağd verirdilər, vergisini ödəmirdilər. Amma indi sahibkar da, fəhlə də məcburdur ki, bunu açıq şəkildə etsin. Yəni "kölgə iqtisadiyyatı" aradan qaldırılır. Həm də işləyən vətəndaş üçün əhəmiyyətlidir, çünki sabah pensiyaya çıxanda onun əmək haqqı tamamilə hesablanacaq və pensiyasına əlavə artım olacaq.

***- Bu minvalla 2019-cu ildə "kölgə iqtisadiyyatı"ndan büdcəyə nə qədər vəsait gələ bilər?***

- Biz onu hesablamamışıq. Bu dəqiqə onun üzərində işləyirik. Mən komitədə də bir sualla çıxış etdim ki, bu dəyişikliklər əlavə olaraq dövlət büdcəsinə nə verəcək? Bilirəm ki, kifayət qədər böyük rəqəmdən söhbət gedir. Əsas odur ki, burada şəffaflıq təmin ediləcək. Ola bilər ki, buradan gələn vəsait 2020-ci ildə Neft Fondundan transfertlərin həcmini azaltsın. Digər ciddi məsələ sadələşmiş vergi ilə əlaqədar idi. Bizdə müəyyən bölgələrdə sadələşmiş vergi 2, ya 4 faiz idi. Amma indi ölkə ərazisində 2 faiz oldu. Sahibkarın ayda 200 min manata qədər dövriyyəsi varsa, o, sadələşmiş vergi prinsipi ilə işləyə bilər. Bu da böyük əhəmiyyət kəsb edir. Ən ciddi məsələlərdən biri-düzdür, burada bizim aramızda müəyyən fikirayrılıqları oldu, amma cənab nazir qeyd etdi ki, bunun üzərində işləyirlər - Əlavə Dəyər Vergisi (ƏDV) ilə bağlı məsələdir. ƏDV-nin qaytarılması prinsipi mexanizmi yəqin işlənib hazırlanacaq. Yanvarın 1-dən qanun qüvvəyə minməlidir. Bəzi ticarət obyektlərindən ki, mal alırsan, o malın üstünə əlavə 18 faiz gəlir, həmin 18 faizin müəyyən hissəsi qaytarılacaq. Bu da böyük əhəmiyyət kəsb edir və birbaşa alıcının maliyyə durumuna təsir edən amillərdəndir. Eyni zamanda nağd hesablaşmalarla bağlı məsələlər də bizimçün əhəmiyyətlidir. Nağd hesablaşmalar çox ciddi məsələdir. Bir vaxtlar ölkəmizdə bunun səviyyəsi 75 faizə gəlib çıxmışdı, nağdsız hesablaşmalar çox az idi. Amma indi yavaş-yavaş bu prinsip düzəlir, artıq hardasa 50 faizi keçib. İnsanlar kartlardan, köçürmədən istifadə edirlər.

***- Vahid bəy, ƏDV ilə bağlı sizin illərdir səsləndirdiyiniz təklif var, diferensiallaşma ilə bağlı...***

- Bəli, bu müzakirə bir neçə ildir gedir. Hətta Hesablama Palatasının sədri cənab Vüqar Gülməmmədov da bu barədə bir neçə dəfə danışıb, Palatanın rəyində də yazmışdı. Biz istəyirik ki, ƏDV diferensiallaşdırılsın. Yəni prestij mallar var, o mallar ki, insana 10 ildə 15 ildə bir dəfə lazım olur, ona 30, 40, 50 faiz vergi qoyulsun, problem yoxdur. Amma gündəlik ərzaq məhsulları, geyim mallarının ƏDV-sini aşağı salsınlar, 4,5 faiz eləsinlər. Məsələn, Almaniyanın, digər ölkələrin təcrübəsi var, götürüb baxsınlar.

***- Belə olan halda ölkədə qiymətlər də aşağı düşəcək, eləmi?***

- Elə əsas söhbət qiymətlərdən gedir. Bu halda gündəlik tələbat mallarının qiymətləri müəyyən qədər aşağı düşəcək. Cənab nazir bizimlə razılaşdı, dedi icazə verin biz bunun üzərində işləyək və gələcəkdə bunu yavaş-yavaş həyata keçirək. ƏDV-nin qaytarılması mexanizmi Azərbaycanda yox idi. Bu, ilk dəfə həyata keçirilir və tədricən genişləndiriləcək. Bu da bizimçün çox mühüm məsələlərdən biridir.

***- Amma parlament son iclasda bir sıra sahələrdə cəzaların sərtləşdirilməsinə də "hə" dedi...***

- Cəzaların sərtləşdirilməsi deyəndə ki... Burada vergi sistemində bir neçə sahədir. Birincisi, "kölgə iqtisadiyyatı"nın aradan qaldırılması, şəffaflığın təmin edilməsi. İkincisi, vergitutma bazasının genişləndirilməsi. Üçüncüsü, vergi inzibatçılığının sərtləşdirilməsi. Dördüncüsü, sahibkarlara hüquqi yardım göstərilməsi. Bunlar hamısı məhz bu Vergi Məcəlləsində öz əksini tapıb. Biz bu məsələni də qoymuşduq. Məsələn, 2018-ci ildə sanksiyalardan gələn cərimələrin miqdarı hardasa 270 milyon manat idi. Amma 2019-cu ildə bu rəqəm 470 milyon olmalıdır.

***- Burada sui-istifadələr ola bilərmi?***

- Yox. Bu dəqiqə vergi sistemində də şəffaflıq təmin olunmağa başlayıb. Əvvəllər ayın axırında vergidən gəlib sahibkara deyirdilər ki, filan qədər köçürməlisən, vergi yığılmır və s. Amma indi o prinsiplər yoxdur, aradan götürülüb.

***- Yəni sahibkara güzəşt edilməklə yanaşı, həm də qanunu pozanlara qarşı sərt cəzalar olacaq?***

- Tamamilə doğrudur. Vergi Məcəlləsi var, bu məcəllə ilə işləməlisən. Vaxtlı-vaxtında qaimələrini, hesabatını verməlisən. Orada ən ciddi məsələlərdən biri - mən cənab nazirlə də təklifdə danışdım, bunu müzakirə etdik - sənədləşdirmə prosesidir. Məsələn, sahibkar gedib hardansa mal alır, ona mütləq sənəd verilməlidir, amma çox yerlərdə o sənədi vermirlər. Ona görə mən cənab nazirdən xahiş etdim ki, bu sahəyə diqqət yetirsin və 2019-cu ildə həmin yerlərdə sənədləşmə prosesi həllini tapsın, sahibkarlar üçün problem yaranmasın.

***- Avtomobillərin rüsumlarının kəskin artırılması qiymətlərə təsir edəcək, eləmi?***

- Bu barədə çox deyirlər. Azərbaycanda kifayət qədər avtomobil var. Sizə açığını deyim, 1992-ci ildə mən baş nazirin 1-ci müavini işləyəndə Azərbaycanda 80 min avtomobil var idi, indi 1 milyon 300 mini keçib, milyon yarıma yaxınlaşıb. Biz demirik ki, avtomobil gəlməsin. Gəlsin, amma avtomobil prestijsdir, sən onu gündə almırsan ki, 10-15 ildə bir dəfə alırsan. Ona görə də bunun rüsumları artırılıb və bu da təbii ki, avtomobil bazarına təsir edəcək.

***- Vahid bəy, neftin qiymətinin "oynaması" nə dərəcədə ciddi narahatlıq yaradır?***

- Əlbəttə, bu narahatlıq var. Düzdür, biz Büdcə sistemi haqqında qanuna dəyişiklik etmişik, büdcənin xərclərinin neftdən asılılığını 60 dollardan götürmüşük, ondan aşağı da düşsə, orda problem olan deyil. Çünki icazə verdik ki, istənilən vaxt Neft Fondundan transfert olsun və problem olmasın. Amma ümumi götürəndə neftin qiymətinin aşağı olması ölkəmizin gəlirlərinə təsir edir. Biz beynəlxalq layihələrə, qaçqınlarla əlaqədar vəsait xərcləyirik. Ona görə də neftin qiymətinin "oynaması" çox ciddi problemdir. Əvvəllər neftin qiyməti birjalarda müəyyən edilirdi, amma bir neçə ildir artıq siyasi kabinetlərdə müəyyən edirlər. Ona görə bu gün neftin qiymətini proqnozlaşdırmaq çox çətindir. Heç kim deyə bilməz ki, 10-20 gündən sonra neftin qiyməti necə olacaq. Aşağı da ola bilər, yuxarı da. Fikir verin, Tramp öz Tvitter səhifəsində yazdı ki, mən neftin qiymətini aşağı saldım, mənə minnətdar olmalısınız. Yəni lazım olanda qaldıracaqlar, lazım olanda aşağı salacaqlar.

***- Gürcüstandakı prezident seçkilərinin nəticələri Azərbaycanla münasibətlərə nə vəd edir?***

- Gürcüstan bizim strateji müttəfiqimizdir. Bizim bütün neft-qaz kəmərlərimiz, Bakı-Qars dəmir yolu oradan keçir. Əsas valyuta gətirən mənbələrdir. İkincisi də Gürcüstanla Azərbaycanda arasındakı münasibətlər prezidentin kimliyindən asılı olmayaraq pozula bilməz. Gürcüstan Azərbaycanın hesabına kifayət qədər vəsait əldə edir. Onlar məcburdurlar ki, bizimlə münasibətləri yüksək səviyyədə olsun. Prezident seçilən xanım dedi ki, biz hələ Rusiya ilə münasibətlərimizi müəyyənləşdirməmişik, daha çox Qərblə münasibətlərə üstünlük verəcəyik. Burda faktiki olaraq İvanişvili çox böyük rol oynadı. Seçkiqabağı əhalinin borcları silindi və s. Mənim məlumatıma görə, İvanişvilinin Qərbdə kifayət qədər əmlakı var. Ola bilər ki, o, xaricdəki əmlakını qorumaq üçün gediş edib. Fikrimcə, Gürcüstan artıq Qərbin əsas siyasət mərkəzinə çevrilib və Qərb orda öz işini görür, görməkdə davam edir.

***- Rusiya-Ukrayna münasibətlərindəki gərginlik hara qədər davam edəcək? Savaş ola bilər?***

- Ukrayna faktiki olaraq Qərbin nəzarəti altındadır? Böyük savaşın olacağına inanmıram. Ola bilər Poroşenko da seçkiqabağı bundan istifadə etsin. Yaxud mümkündür ki, Putin də Ukraynaya təzyiq üçün istifadə etmək istəsin. Böyük savaşa getsələr, bu, artıq Üçüncü dünya müharibəsinin vüsət almasına səbəb ola bilər. Faktiki olaraq, Üçüncü dünya müharibəsi orda-burda lokal şəkildə gedir. Ukrayna artıq Avropanın bir hissəsinə çevrilməkdədir, onun dəyərlərini özündə əks etdirən addımlar atır. Düzdür, iqtisadi vəziyyəti müəyyən qədər ağırdır, yardımlar alır. Amma Ukrayna balaca dövlət deyil, güclü dövlətdir.

***- Bu məsələdə Azərbaycanın mövqeyi necə olmalıdır?***

- Azərbaycanla Ukrayna arasında münasbətlər həmişə yaxşı olub. Hələ rəhmətlik Heydər Əliyevin vaxtında Azərbaycan Ukraynaya, Ukrayna Azərbaycana hərtərəfli kömək edib. Azərbaycan hər iki ölkə ilə müttəfiqdir, yaxşı əlaqələri var. Onların müdafiəyə də ehtiyacı yoxdur, iki dövlət arasındakı sərhəddə yaşanan gərginlikdir, yəqin özləri məsələləri həll edəcəklər. Rusiya da bizim strateji müttəfiqimizdir. Azərbaycan dövlətinin başçısı ilə Rusiya prezidenti arasında münasibətlər yüksək səviyyədədir. Amma digər tərəfdən, Dağlıq Qarabağdakı qondarma rejimin rəhbərini qəbul edir. Mən bunu bizə qarşı təxribat hesab edirəm. Azərbaycan XİN-i Rusiyanın bu davranışına qarşı gözəl bir bəyanat verdi, mən onu alqışlayıram. Bizə qarşı belə hərəkətlər olmamalıdır. Azərbaycan Rusiya üçün önəmli dövlətdir. Strateji müttəfiqik, ticarət dövriyyəmiz 2 milyardı keçib. Azərbaycan 90-cı illərin Azərbaycanı deyil, kifayət qədər oturuşmuş, müstəqil dövlətdir. Düzdür, ABŞ kimi 240 ildir müstəqil deyilik, cəmi 27 ildir müstəqilik. Bu müddətdə ağır, çətin də olsa, müəyyən uğurlara nail olmuşuq. Ona görə də Rusiya belə hərəkətlərə yol verməməlidir. Onlar da başa düşməlidir ki, belə olmaz!

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**



# Maşın alın, atın qapıya

Zamin HACI
zaminhaci@gmail.com

“Böcək olduğunu qəbul eləmisənsə, əziləndə ağlama”
*(Əziz Nesin)*

**Bir dostumuz var, deyir taksiyə minmişdim, sürücü yolda soruşdu ki, xəbərin yoxdur, söhbət var gələn ildən maşının qiyməti qalxır, dəli şeytan deyir birini al at qapıya, qiymət qalxanda sat, beş-on manat qabağa düş. Dostumuz ziyalı bir adamdır, nüfuzlu universitet bitirib, ildə neçə dəfə xarici səfərlərdə olur, elə taksi şoferi də bəlkə onun bilgin görkəmindən yola çıxaraq söhbəti salıbmış. Ancaq fərli cavab almayıb, çünki dostumuzun gələn il maşının qiymətinin qalxmağından xəbəri yoxmuş, ümumiyyətlə, maşın alveri tipli şeylərlə maraqlanmır. Qiymət isə doğrudan da qalxacaq kimi görünür, çünki vergilər naziri ölkəyə gətiriləcək maşınların aksiz vergisinin qalxacağını bildirib. Nəsə belə bir təzə qanun-qərar qüvvəyə minmişdir.**

Cem Yılmaz-ın “QORA” filmində belə bir səhnə var: qoca kəndli kişini kabriolet maşına götürür, kişi papağını tərs çevirir, deyir külək aparmasın. Cem Yılmazın qəhrəmanı o anda deyir: “Hər şeyi də necə yaxşı bilir”. İndi bizdə də təxminən o vəziyyətdir. Millətin maşın alveri, gələn ay nəyin qiyməti qalxacaq, nəyin düşmək ehtimalı var - belə söhbətlərdən qəşəng xəbəri vardır. Vergilərin aksiz dərəcəsini nazirdən qabaq bilirlər. Bu kimi alver-ticarət işlərində, yalan olmasın, Alibaba.com-un qurucusu Cek Ma-nı “Binə” yarmarkasına malsız aparıb malsız gətirərik.

Yanlış anlaşılmasın, mən bunu tənqid eləmirəm. Əksinə, praktik cəhətdən bir bacarıq, həyatda qalmaq şəklimiz kimi bəyənirəm. Camaat yaxşı bilir ki, siyasətlə, sosial durumla, mənəvi vəziyyətlə-filanla maraqlanmaq, millət olaraq gələcəyimizi düşünmək sağlamlığa zərərlidir, praqmatik deyildir. Gözü çıxan o qədər qardaş var ki. O üzdən, ən yaxşısı kanistri götürüb gecə saat 12-yə qədər içinə benzin doldurmaqdır. Borc-xərc edib maşın alıb qapıya atmaq, gələn ayı gözləməkdir. “Levi” işıq, qaz xətti çəkməkdir.

İndi vergi məcəlləsinə dəyişikliyi də bənzər tale gözləyir. Misal üçün, orda startap-lardan vergi alınmayacağı yazılıb. Sizi inandırım, bu dəqiqə neçə adam dükanı vergi qeydiyyatından necə startap kimi keçirtməyi fikirləşir. Klassikimizin o məşhur əsərindəki kimi: “Ağa nəçənnik, bizim kənddə yerli-dibli uşaq olmayıbdır”.

Vergidən söz düşmüşkən. Özüm şahidi olduğum əhvalatdır. Bir gün bələdiyyə gəldi ki, əmlak vergisi yığırıq. Soruşdum, nə qədər edir, dedi, filan qədər. Mən də qanuni hesablayanda bundan iki qat artıq çıxırdı. Deməli, burda nəsə fırıldaq vardı. Pul ödəməyim haqda qəbzi alanda bu fırıldağı anladım, çünki sənədin üzərində bələdiyyənin yox, hansısa kiçik müəssisənin möhürü vurulmuşdu. Mexanizmi qısaca olaraq bu cür izah edim: bələdiyyədəki lotular əhalidən yığılan vergiləri sözün əsl mənasında oğurlayır, dövlətdən subsidiya dilənir, camaat da susur, çünki qanuni ödəsək çox olar. Necə deyərlər, alan razı, satan razı, qələt eləyir qazı. (Burada “qazı” bizim dövlətimiz, millət olaraq gələcəyimizdir. Guya “levi”, fırıldaq işlərlə qabağa düşürük, əslində isə bataqlıqda batdığımızı anlamaq istəmirik).

O cümlədən, yenə hansısa şəxsi müəssisənin qəbziylə zibil pulu yığırdılar. Adambaşına, aylıq 3 manatdan. Burda artıq ağ eləmişdilər, çünki zibil pulu aylıq 30 qəpik olmalıydı. Amma belə çıxırdı bələdiyyə özündən yeni “Tarif Şurası” icad edibdir. Pulyığan dedi ki, ilk dəfədir etiraz edən görürəm, sizdən başqa hamı pulu verir. Doğrusu bilmirəm nə qədər düz danışırdı, ancaq mənə “oxuduğu” 40 manatı axırda endirib 10 manatda dayandı. Mənim hesablamamla qanuni bu qədər alınmışdı. Beləcə, zibil pulunu guya qanuni (çünki bank hesabı yenə bələdiyyənin deyildi), əmlak vergisini isə yarıbayarı ödədim, əl çəkib getdilər. Bütün ölkə bu cür qara hesab-kitablarla doludur. Hamı oğurlamağa, “kiməsə atıb qabağa düşməyə” çalışır. Sonucda heç birimiz qabağa düşmürük.

Yolpulunda 1 manat üstündə çənə-boğaz edən taksi sürücüsü maşın alıb aksiz vergisi qalxandan sonra satmağı fikirləşirsə, hökuməti islahata kim vadar etməlidir? Ritorik sual idi, əlbəttə.




# Kremlin emissarları İrəvanda - Moskva “qum saatı”nı işə salır

## Ermənistan kritik həftəyə girdi; seçki günü yaxınlaşdıqca işğalçı ölkədə anti-Rusiya ovqatı güclənir; Paşinyan İrəvanda Putinin adamlarını “iqnor” elədi - səbəb

**Ermənistanda növbədənkənar parlament seçkilərinə sayılı günlər qaldı. Qarşıdakı seçkilərin nəticələri şübhəsiz, ən çox Rusiyanı maraqlandırır. Çünki işğalçı ölkə şimal qonşumuzun Güney Qafqazda yeganə və legitim hərbi qalası, daha dəqiqi, bölgədəki əsas “görən gözü”dür. O səbəbə satellit Ermənistanın sükanı arxasında hansı siyasi qüvvənin durması Kreml üçün prinsipial əhəmiyyət kəsb edir.**

Lakin gerçək belədir ki, bu il mayın 8-də baş verən “məxməri inqilab” nəticəsində Ermənistan rəhbərliyi Rusiyanın adamlarından təmizlənib. Yüksək vəzifə tutan irili-xırdalı “Rusiya kadrları”nın hamısı, o cümlədən generallar (Movses Akoyan, Yuri Xaçaturov və s.) qısa zamanda öz postlarından kənarlaşdırılıb. Ən önəmlisi, hazırkı baş nazir əvəzi, qərbyönlü Nikol Paşinyanın komandası bütünlüklə Amerika və Soros “uşaqları”ndan, Rusiyaya antipatiyası olan kadrlardan təşkil edilib.

Qarşıdakı seçkilər böyük ehtimalla, bu gerçəyin legitimləşməsi ilə yadda qalacaq. Odur ki, Rusiya narahatdır. Narahatdır ki, 9 dekabr seçkilərində xalqdan mandat alan qərbpərəst hökumət ölkənin yönünü tədricən Avropaya, ABŞ-a sarı çevirə bilər...

*****

Hələliksə İrəvana təşrif buyuran Avropa və MDB-dən olan müşahidəçilər seçkilərin monitorinqi ilə məşğuldurlar. Onların arasında Rusiya nümayəndə heyəti xüsusi seçilir. Nümayəndə heyətinə Rusiya Dövlət Dumasının MDB işləri və həmvətənlərlə iş üzrə Komitəsinin sədr müavini, Qarabağ məsələsində qatı ermənipərəst mövqe tutan, Azərbaycana girişi yasaqlanmış bədnam Konstantin Zatulin başçılıq edir. Digər bir tanınmış şəxs - Kremlin ruporlarından olan “Regnum” agentliyinin eksperti, erməni yanlısı Stanislav Tarasovdur. Lakin gələn xəbərlərə görə, rusların niyyəti təkcə seçkiləri monitorinq eləmək deyil.

“Rusiya narahatdır ki, Ermənistanın yeni parlamentində qərbyönlü və Soros qüvvələri üstünlükdə olacaq. Bu günlərdə Rusiyadan olan emissarlar ”situasiyanı yerində öyrənmək" üçün Ermənistana gəliblər". “Yeni Müsavat”ın məlumatına görə, bunu “Qraparak” erməni nəşri yazıb.

“Rusiya təlaşlıdır ki, qərbyönlü və Soros qüvvələri, ilk növbədə də, əlbəttə ki, ”Sasna Tsrer" (Rusiya hərbi bazalarının Ermənistandan çıxarılmasını tələb edən radikal-terrorçu qruplaşma - “YM”) və Avropa yönümlü qüvvələr yeni parlamentdə dominantlıq edəcək. Moskva bunu özünə qarşı təhdid hesab edir", - qəzet əlavə edib.

Erməni KİV-ləri onu da yazır ki, ötən həftəsonu İrəvanda “Rusiya-erməni Lazerev klubu” adlanan, iki ölkənin daha da yaxınlaşmasına xidmət edən təzə bir qurumun ilk toplantısı start götürüb. Yeni ideyanın müəllifi Zatulindir. Onun sözlərinə görə, əsas hədəf “Rusiya-Ermənistan münasibətlərini təzədən format eləmək üçün mexanizmlər tapmaqdır”. Əslində isə məqsəd, əlbəttə ki, işğalçı ölkəni Rusiyanın orbitində saxlamağa yardımçı olmaqdır. Ancaq maraqlıdır ki, həmin tədbirə Ermənistan yeni rəhbərliyindən heç kim həvəs göstərməyib və ona qatılmayıb.

“Biz başa düşürük ki, Ermənistan prezidenti hazırda xaricdədir (Avropada - ”YM"). Ancaq bildiyim qədər, baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyan ölkədədir və seçicilərlə görüşlər keçirir. Biz onlardan incimirik. İlk iclasa Ermənistan və Rusiyadan çoxlu sayda adamlar dəvət etmişik. Ancaq belə başa düşürəm ki, onların heç də hamısı iştirak etməyəcək". Bu gileyi Zatulin İrəvanda jurnalistlərə açıqlamasında bildirib.

*****

Göründüyü kimi, Rusiyanın təzə təşəbbüsü Paşinyanın ürəyincə olmayıb. Ona görə də Qarabağ məsələsində hətta qatı erməniperəst mövqe tutan, ermənilərin Rusiyadakı əsas lobbistlərindən biri Zatulini belə, saya salmayıb. Çünki o, Qərbin, Amerikanın, Sorosun, ən başlıcası, onu hakimiyyətə gətirmiş inqilabçı kütlənin gözündə sələfləri kimi rusiyayönlü qismində görünmək istəmir - xüsusən də səsverməyə bir neçə gün qalmış. İstənilən halda, bu, Kremlin emissarlarını iqnor eləmək anlamına gəlir.

Beləcə, seçkiöncəsi Nikol Paşinyan Rusiyanın “bostanı”na daş atmaqda davam edir. Sanki cəmiyyətdəki anti-Rusiya ovqatını yaxşı bildiyi üçün və bu ovqatı körükləmək, nəticə etibarilə daha çox səs almaq naminə bu addımlara gedir.

Onlardan növbəti birisi yenə ötən həftəsonu qeydə alınıb. Putinin emissarlarını boykot etməyin ardınca Paşinyan KTMT-də baş katiblik problemi ilə bağlı danışarkən, bunu “xırda məsələ” adlandırıb, “daha vacibi Ermənistanın milli maraqlarının qorunmasıdır” söyləyib, ardınca isə Rusiya daxil, müttəfiqlərə ünvanlı hədə dilində danışıb.

Sitat: “Ermənistanın milli maraqlarının qorunması bir sıra məsələlərdən daha önəmlidir. Lakin münasibətlərdəki problemlər nəzərə alınmasa, vəziyyət daha da pisləşəcək. Bu baxımdan, KTMT-yə üzv dövlətlərin öz üzərilərinə götürdükləri öhdəlikləri yerinə yetirməsi olduqca vacibdir. Buna görə də, KTMT-yə yeni baş katibin təyin edilməməsi kiçik və əhəmiyyətsiz mövzudur”.

*****

Paşinyan, sözsüz ki, baş katiblik məsələsində blef edir. Bu, ondan ötrü, əlbəttə ki, prinsipial önəm daşıyır - xüsusən də seçkilərə bir neçə gün qalmış. Görünür, o, müxalifətin bu uğursuzluqdan ictimai rəydə istifadəsini önləmək üçün məsələni kiçiltməyə çalışıb. Əks halda, “münasibətlərdəki problemlər nəzərə alınmasa, vəziyyət daha da pisləşəcək” deməzdi.

Fakt budur ki, “Rus NATO-su”nda Paşinyan baş katib Yuri Xaçatorova qarşı cinayət işi açması, bir qədər sonra isə onu geri çağırmasından sonra bir növ yad kimi qəbul olunur, ona etimad bəslənilmir. Eyni səbəbdən onun KTMT baş katibi qismində başqa ermənini təsdiqləmək tələb-təklifi Astana sammitində fiasko olub (KTMT-nin növbəti toplantısında bu fiaskonun rəsmiləşməsi gözlənilir).

Xatırladaq ki, az öncə Paşinyan digər bir rayonda öz seçiciləri ilə görüş zamanı Rusiya başda olmaqla, KTMT üzrə “müttəfiqləri” nəzərdə tutaraq, “gec-tez hamı bizimlə hesablaşmalı olacaq”, - deyə özündənrazı şəkildə bəyan eləmişdi.

Rəsmi İrəvanın bütün bu demarşlarını Moskvada təbii ki, “yığır” və fiksə edirlər. Ona da şübhə yox ki, Kreml artıq Ermənistan üçün “qum saat”ını işə salıb...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**




# Gürcüstan Ermənistana nəfəslik aça bilər - Zurabişvili təhlükəsi

## Elçin Mirzəbəyli: "Vəziyyət daha çevik olmağımızı tələb edir..."

**Gürcüstanın yeni prezidenti Salome Zurabişvilinin gəlişi göründüyü kimi, Azərbaycanda narahatlıqla qarşılanıb. Xanım siyasətçinin ermənipərəst ölkə Fransada doğulması, seçkiqabağı təbliğat dönəmində ermənilərə olan simpatiyasını büruzə verməsi onun qarşıdakı 6 illik prezidentliyi dönəmində Ermənistanla yaxın əlaqələr qura biləcəyi ilə bağlı fikirlər formalaşdırıb.**



Azərbaycan tərəfi ən çox narahat edən Rusiyanı Ermənistanla birləşdirən Abxaziya dəmir yolunun açılması və düşmən ölkənin blokada rejiminin yumşaldılması ilə bağlı S.Zurabişvilinin addım ata biləcəyi yönündə ehtimallardır.

Politoloq Elçin Mirzəbəyli Azərbaycan tərəfin narahatlığı ilə bağlı "Yeni Müsavat"a bu cür şərh verdi: "Gürcüstanın mövcud Konstitusiyasına görə, prezidentin səlahiyyətləri bir o qədər də geniş deyil. Prezident dövlət başçısı və ali baş komandan sayılsa da, o, hökumətin razılığı olmadan daxili və xarici siyasətlə bağlı müstəqil qərarlar qəbul etmək və həyata keçirmək səlahiyyətində deyil. Bu isə öz növbəsində Gürcüstanda prezident hakimiyyətinin dövlət idarəçiliyinin demək olar ki, bütün istiqamətlərində formal xarakter daşıdığını söyləməyə əsasa verir. Bu baxımdan, Gürcüstanın yeni seçilmiş prezidenti Salome Zurabişvili də fəaliyyəti dövründə hökumətin və parlamentin razılığı olmadan hər hansı formada qərar qəbul edə və həyata keçirə bilməyəcək. Çünki onun belə bir konstitusion səlahiyyətləri yoxdur. Bu səbəbdən də onun Moskva-Suxumi-Tiflis- İrəvan dəmir yolunun açılması ilə bağlı birbaşa qərar verməsi hüquqi baxımdan mümkün deyil. Ermənistanla Rusiya arasında birbaşa dəmiryolu əlaqəsinin bərpasına gəldikdə isə, Gürcüstanın indiki hakimiyyətində Salome Zurabişvili olmadan da bunu istəyənlər az deyil. Yolun bərpa olunmasına mane olan amillər isə kifayət qədər çoxdur və təbii ki, yolun açılması ilk növbədə Gürcüstanın öz milli maraqlarına cavab vermir. Şübhəsiz ki, burada əsas amillərdən biri Azərbaycanla bağlıdır. Nəzərə alsaq ki, Gürcüstanın Azərbaycana ehtiyacı olduğu kimi, Azərbaycanın da Gürcüstana ehtiyacı var, o zaman bu amilin yeganə olmadığı barədə fikirlərimizi qətiləşdirə bilərik. Dəmir yolunun bərpasına mane olan amillərdən biri Abxaziya ilə bağlıdır. Yolun açılması isə de-fakto ilhaq olunmuş Abxaziya ilə bağlı reallığın qəbul edilməsidir. Digər tərəfdən Abxaziyada çoxsaylı erməni diasporu yaşayır və onlar Gürcüstana qarşı müharibədə, separatizm hərəkatının vüsət almasında fəal şəkildə iştirak ediblər. Son göstəricilərə görə, Abxaziyada yaşayan ermənilər əhalinin 21%-ni təşkil edir. Abxaziyanın paytaxtı Suxumidə şəhər əhalisinin 61%-i ermənidir. Ermənilər Qaqrada 41, Qulrıpş rayonunda isə əhalinin 47%-ni təşkil edirlər. Sadaladığım şəhər və rayonlar Abxaziyanın ən strateji və ən gəlirli bölgələridir. Abxaziyada vaxtilə vüsət alan separatizm hərəkatında ermənilər əsas stimullaşdırıcı amil və imperiyanın sadiq köpəkləri kimi çıxış ediblər. Ermənistanla dəmiryolunun açılması isə ilk növbədə onların işinə yarayacaq. Zurabişvilinin əvvəllər Fransa vətəndaşı olmasının və bu ölkənin xarici siyasət idarəsində mühüm vəzifələrdə çalışmasının isə Ermənistanla Rusiya arasındakı dəmiryolu xəttinin açılması ilə nə birbaşa, nə də dolaysıyla əlaqəsi yoxdur. Onun prezidentliyi ilk növbədə Gürcüstanla Avropa İttifaqı münasibətlərinə müsbət təsir göstərəcək və çox güman ki, Fransa da bu prosesdə öncül yer tutacaq. Fransanın dəmiryol məsələsində Gürcüstana təsir göstərəcəyi isə inandırıcı deyil. Çünki Rusiya ilə Ermənistan arasındakı əlaqələrin genişlənməsi heç bir halda rəsmi Parisin maraqlarına xidmət etmir. Bununla yanaşı, Zurabişvilinin bir sıra qıcıqlandırıcı addımlar atması da mümkündür. Belə bir ehtimalı da gözdən qaçırmaq olmaz. Çox güman ki, Ermənistanda keçirilən seçkilərdən sonra onunla Nikol Paşinyan arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı müəyyən müzakirələr aparılacaq və ola bilsin ki, Gürcüstan hökuməti ilə razılaşdırılmış hansısa ortaq qərarlar da qəbul olunsun. Reallıq isə ondan ibarətdir ki, regiondakı düzən dəyişir. Ən azından yaxın perspektivdə... Şübhəsiz ki, bu prosesdə Rusiyanın iştirakının necə olacağı, baş verənlərə münasibətdə gözləmə mövqeyi tutacağı, yaxud daha sərt addımlar atacağı da önəmlidir. Bu məqamların dövlətimiz tərəfindən nəzərə alındığına şübhə etmirəm".

Politoloq yaranmış vəziyyətdə Azərbaycan tərəfin nə etməli olduğu barədə suala belə cavab verdi: "Yaranmış vəziyyət daha çevik olmağımızı tələb edir. Gürcüstanda yaşayan soydaşlarımızla bağlı buraxılmış boşluqlar aradan qaldırılmalıdır. Bu prosesdə Gürcüstan tərəfindən iştirak edən, əslində isə Gürcüstan və Azərbaycanın deyil, üçüncü dövlətlərin, o cümlədən Rusiyanın maraqlarına xidmət edən qruplar, şəbəkələr sıradan çıxarılmalı, birbaşa təmas və ünsiyyət bərpa edilməlidir. İnvestisiyalar Azərbaycanla sərhədə yaxın ərazilərə yatırılmalıdır. Gürcüstan azərbaycanlılarının təhsili başa vurduqdan sonra öz ölkələrinə qayıdacaqları barədə öhdəliklərinə uyğun olaraq, Azərbaycanın ən yaxşı ali təhsil müəssisələrində ödənişsiz təhsil almalarına imkan yaradılmalıdır. QHT-lərin həyata keçirdiyi layihələrdə Gürcüstanda və digər ölkələrdə yaşayan soydaşlarımızın iştirakı əsas şərtlərdən biri kimi götürülməlidir. Azərbaycandan gürcü və Azərbaycan dillərində - iki dildə yayımlanan internet resursları və bəlkə də telekanal yaradılmalıdır. 2017-ci ildə Azərbaycan, Gürcüstan, Ukrayna və Moldova arasında azad ticarət zonalarının yaradılması ilə bağlı qərar qəbul olunmuşdu və qərar artıq həyata keçirilməli, ağırlıq mərkəzi isə Azərbaycanla Gürcüstanın həmsərhəd əraziləri olmalıdır. Əslində görüləcək işlərin siyahısı kifayət qədər genişdir, amma təəssüf ki, onların çoxunu açıqlamaq mümkün deyil".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

# "İrəvanın Su-30CM-lərlə bağlı açıqlaması daxili auditoriyaya yönəlib"

## Şair Ramaldanov: "Öz əsgərini yetərincə alt paltarlarla təmin edə bilməyən bir ölkənin..."



**Ermənistan Rusiyadan Su-30CM tipli qırıcı təyyarələr alacağını bəyan edib. Bu barədə Ermənistanın müdafiə naziri səlahiyyətlərini icra edən David Tonoyan bildirib ki, Rusiya qırıcı təyyarələrin alınması üçün Ermənistana 100 milyon dollar kredit verəcək. "Biz bunun tez olmasını istəyirik. Artıq danışıqların yekun mərhələsindəyik", - deyə Tonoyan rusiyalı jurnalistlərə bildirib.**

Qeyd edək ki, Ermənistana yeni ixrac kreditinin verilməsinə dair razılıq 2017-ci il oktyabrın 24-də əldə edilib. Bu kredit sayəsində Ermənistan Rusiya istehsalı olan hərbi texnika əldə edəcək. Kredit 15 il müddətinə, 3 faizlə veriləcək.

Lakin ekspertlərin əksəriyyəti Ermənistanın alacağı bu silahların onlara hər hansı üstünlük qazandırmayacağını düşünürlər. Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov hesab edir ki, ermənilər silahlanmaları ilə bağlı məsələni çox vaxt şişirdirlər: "İsgəndər"lərlə bağlı bu dəqiqə də sual var ki, bu silahlardan istifadə icazəsi var, ya yox. Onlar təhlükəsizlik müqaviləsi çərçivəsində o məsələlərdə iştirak edirlər. Biz bilirik ki, orada Rusiyanın da bazası var. Məntiqlə götürsək, ola bilər ki, Ermənistanda təyyarələr və digər silahlar yerləşdirilsin. Amma o silahların kimə məxsusluğu, hansı hallarda istifadə oluna biləcəyi hələ də sual işarəsi altındadır. Digər bir məsələ də bizim diqqətimizi cəlb etməlidir. Bilirsiniz ki, ötən həftə mətbuatda yayılmışdı ki, Ermənistanın baş naziri Nikol Paşinyan əsgərlərin yeməyi ilə bağlı məlumat vermişdi. Demişdi ki, yeməyi normal vəziyyətə gətirmək üçün zaman lazımdır. Zaman da təbii ki, maliyyə deməkdir. Ondan əvvəl də məlumat var idi ki, erməni əsgərləri alt paltarları ilə təmin olunmurlar. Bu barədə problemlərin ciddi olduğu deyilirdi. Öz əsgərini yetərincə alt paltarlarla təmin edə bilməyən bir dövlətin bu cür təyyarələr almağa imkanı olarmı? Bu çox ciddi sualdır. Siyasi proseslər qabağı Ermənistanın müdafiə naziri səlahiyyətlərini icra edən şəxs sadəcə, belə açıqlamalarla çıxış edir. Belə bəyanatları biz onlardan çox eşitmişik. Halva-halva deməklə ağız şirin olmur. Bunlar deyirlər ki, biz son mərhələdəyik, yəni təyyarələrin alınması ilə bağlı. Bu nə deməkdir? Baxın, bu açıqlanmır. Əgər məhsul varsa, pul verilir və o alınır. Kredit varsa, bu formada alınır. Bu barədə də məlumat verilir. Bütün bunları nəzərə alsaq, çox da inandırıcı gəlmir. Tutaq ki, onlar həmin silahları aldılar, amma unutmayaq ki, o silahlar Azərbaycanın hava məkanında üstünlük qazanacaq səviyyədə deyil. Bu gün bizim hərbi hava qüvvələrimiz ermənilərdən 6-7 dəfə üstündür, yəni imkanlarımız çoxdur. Digər tərəfdən, bilirsiniz ki, Pakistandan təyyarələr almaqla bağlı artıq məlumat yayılıb. Bu faktorları nəzərə alanda düşünmək olar ki, Ermənistan o silahları ala bilməyəcək. Alsalar belə, o silahlar ermənilər üçün nə verəcək? Dağlıq Qarabağda onun sadəcə 100 kilometr dərinliyi var. Ermənilərin imkanları yoxdur ki, genişmiqyaslı hücum əməliyyatları aparsın və bizim hansısa hədəfləri vursunlar. Bu gün Azərbaycanın hava hücumundan müdafiə sistemləri günü-gündən müasirləşir. Bilirsiniz ki, hava sistemindən müdafiə ilə bağlı İsraildən müasir silahlar almışıq. Ali baş komandanımız İlham Əliyev Belarusa günlər öncə etdiyi səfərdə hava hücumlarından müdafiə ilə bağlı memorandum imzalanıb. Hava hücumlarından müdafiə ilə bağlı SSRİ-dən qalan köhnə sistemlər yenilənib. Əgər bu gün biz "İsgəndər"lərin qarşısını almaq durumundayıqsa, əlbəttə o təyyarələrin də qarşısını ala biləcək durumdayıq. Ona görə də, əminlik deyə bilərik ki, ermənilər bu təyyarələri alsalar belə, hava hücumlarında bu onlara heç bir üstünlük verməyəcək. Fikrimcə, bu açıqlamalar daxili auditoriyaya yönəlib. Ermənistan daxilində ciddi siyasi proseslər gedir. Azərbaycan tərəfin silahlar alması, eləcə də, Belarus, Pakistan, İsraillə bağlı mətbuatda xəbərlər yayılıb. Ona görə də Ermənistan Müdafiə Nazirliyi bu məsələni ortaya qoyub. Ermənistan Azərbaycanın iqtisadiyyatına necə çata bilmirsə, o cür də Ermənistanın silahlı qüvvələrinin Azərbaycan Silahlı Qüvvələrinə çatmaq şansları çox azdır".

❑ **Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

**“Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışmış Arif Əsgərovun oğlu Elnar Əsgərov xalası Lətifə Hüseynovadan polisə şikayət edib. Bu və başlarına gələn digər hadisələr haqda Hüseynovlar ailəsi - Lətifə və İsmayıl Hüseynovlar “Yeni Müsavat”a danışıblar.**




# “Arif Əsgərovun evindən milyonları dəri kisədə daşıyırdıq” - cinayət dosyesi

## **Sabiq nazir müavininin bacanağı:** “Onun evindən 21 milyon manat pul aparıb istintaqa vermişəm, orada zərərçəkənlərə ödəyiblər”

Vaxtilə böyük maddi imkanları olan İsmayıl Hüseynov hazırda müflis durumdadır. Bakıdakı evləri, mal-mülkləri əllərindən çıxıb. Bir oğlu Emin Hüseynov 9 il həbs cəzasına məhkum edilib. 6 saylı cəzaçəkmə müəssisəsində saxlanılır. Digər oğlu Rahib Hüseynov isə noyabrın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsinə getmək üçün evdən çıxıb və bu günə qədər harada olduğu bilinmir. Rahib Hüseynov Arif Əsgərov Dəmiryol İdarəsinin rəisi olduğu dövrdə orada marketinq və satış idarəsinin müdiri işləyib. İndi isə müxtəlif adamlardan biznes qurmaq adıyla milyonlarla pul alıb aldatmaqda suçlanır. İttihama görə, R.Hüseynov pulunu aldığı zərərçəkmişlərə “Azərbaycan Dəmir Yolları” QSC üçün xaricdən yataq dəstləri gətiriləcəyini, qazancın 20 faizinin onlara veriləcəyini vəd edib. Məhkəmədə Rahib Hüseynov zərərçəkmişlərdən alınan pulları xalası oğlu Elnara verdiyini deyib. Əlindəki qeydiyyat kitablarını, səs yazılarını (https://www.youtube.com/watch?v=KmkYshd75 CQ&feature=youtu.be) təqdim edib. Bununla belə Elnar Əsgərov məhkəmədə şahid, o isə təqsirləndirilən şəxsdir. Artıq dövlət ittihamçısı Rahib Hüseynovun 10 il azadlıqdan məhrum edilməsi ilə bağlı çıxış da edib. 10 gündür ki, Rahib Hüseynovun harada olduğu bilinmir. Onun anası Lətifə Hüseynova oğlunu bacısı Xatından, onun həyat yoldaşı Arif Əsgərovdan, onların oğlu Elnar Əsgərovdan xəbər almaq istəyib. Binəqədidə yan-yana inşa olunan Əsgərovlara məxsus villaların qapılarına gedib. Onu qəbul etməyiblər, üstəlik, polisə də barəsində şikayət olunub. Rahib Hüseynovun atası İsmayıl Hüseynov da deyir ki, övladları böyük haqsızlığın qurbanıdır.

*(əvvəli ötən sayımızda)*

Sitat: “2013-cü ildən bu yana bu məsələ araşdırılır. O vaxt böyük oğlum Rahibi 11 ay saxladılar, ətraflı, hərtərəfli araşdırma apardılar. İşə xitam verdilər. Həmin günlərdə Arif Əsgərovun yoldaşı məni yanına çağırdı, dedi ki, bacım, qardaşım, qardaşım oğluna evləri, bağları mənim pulumla alıblar. Onların evlərinin kupçalarını verdi, dedi ki, get notariusdan ”qeneralnıy doveronnost" al, sat, borcları ödə. Bu gün isə deyirlər ki, belə bir məsələ olmayıb. Olmayıbsa, “kupça”, “doveronnost” necə məndədir?"

(https://www.youtube.com/watch?v=0mYKAJWn baw&feature=youtu.be ttps://www.youtube.com/watch?v=0mYKAJWn baw&feature=youtu.be)

İsmayıl Hüseynov deyir ki, dəmiryolunun təchizatı üçün müxtəlif adamlardan pullar alınıb. Həmin pullarla dəmir yolunun təchizatı üçün ucuz qiymətə mallar alınıb və baha qiymətə dövlətə satılıb. Əldə olunan gəlirdən isə pul sahiblərinə faizlər verilib: “Elnar Əsgərov, onun anası və mənim oğlum da bu işin içində idi. 10 min manatlıq malı dəmir yoluna 15 min manata satırdılar. Sonra həmin 5 min manatdan faizlər verilirdi, pullar bölünürdü. 2015-ci ildən sonra problemlər ciddiləşdi. Arif Əsgərovu dəmir yol idarəsinin rəisi vəzifəsindən, nəqliyyat nazirinin müavini vəzifəsindən çıxardılar. Bundan sonra borclulara da pul vermək dayandı. Bizim də qara günlərimiz başladı. Adamlar gəlib deyirdilər ki, pulu ver, bizə dəxli yoxdur sən kimə aparıb veribsən. Oğlum pulları Elnar Əsgərova verirdi. 3 il faizlərin pulunu veriblər. Evimdə həmin qeydiyyat kitabları bu gün də var. Mən Arif Əsgərovun evindən istintaqa 21 milyon manat pul aparıb vermişəm, orada ziyançəkənlərə ödəyiblər. Deyirdilər ki, aparın borc sahiblərinin pulunu verin. İş üzrə 18 nəfər zərərçəkən vardı. Mənim oğlum onun oğlu ilə birgə işləyiblər. İstintaqda müstəntiqin iştirakı ilə zərərçəkmişlərə pullar ödənildi. 1 metrlik qara dəri çanta vardı, içinə 2-3 milyon yığırdılar, yoldaşımla mənim həmin çantaya gücümüz çatmırdı. Sürüyüb aparırdıq. İndi isə Arif Əsgərovun oğlu Elnar Əsgərov deyir ki, sənin uşaqların mənim adımdan istifadə edib pul götürüblər. Bütün Tovuz rayonu bilir ki, mən halalla dolanan adamam. Atam da belə olub. Məndə 21 milyon manat haradan ola bilərdi? Mənim cəmi nəslimdə o qədər pul olmayıb. Mənin 8 min 600 qoyunum, 500 iribuynuzlu malım olub. Ulu öndər o vaxt sərgidə mənim fermamın məhsullarını görmüşdü, ondan sonra mənə kredit verildi. ”Azərbaycan Dəmir Yol" bankı vasitəsi ilə mənə 100 min manat kredit verdirdi, işimi böyütdüm. Yəni məndə milyonla pul olmayıb. Mənim övladlarımı tutdurmaq üçün 2 nəfərin pulunu qəsdən ödəmədilər. Biri Qoşqar Zeynalov idi, bir də iş adamı Emin Kərim oğlu Məmmədovdur. Onu balaca oğlumda saxlayıb ödəmədilər, bunu da böyük oğlumun işində saxlayıb pulu ödəmədilər. Bu gün 3 milyon yarım pulu ödəməyiblər. Həmin pulu ona görə ödəmədilər ki, oğlanlarım həbs olunsun. Həmin pulları ödədikləri günlərdə məni çağırırdılar, deyirdilər ki, səs-küy salma, pullar ödənəcək. Həmin vaxt bu məsələ qalxanda Emini Astanaya, Rahibi isə Türkiyəyə göndərdilər. Rahibi Türkiyədə, İstanbulda meşənin içində bir ev tutub orada saxladılar. Rahib Türkiyədə olandan mənə xəbər gəldi ki, oğlunu orada öldürəcəklər. Orada oğlumun yanına adamlar qoymuşdular. Həmin adamlardan biri “Viano” markalı maşın sürürdü. Onu tanıyırdım. Çünki Arif Əsgərovun ortancıl oğlunun toyunda görmüşdüm. Oğlumu ora aparmışdılar ki, başını əskinlər".


Arif Əsgərov

İ.Hüseynov deyir ki, sonradan oğlunu Azərbaycana qaytarıb həbs etdiriblər: “Oğlumu ”Qırmızı Körpü"də saxladılar. Məlum oldu ki, Elnar Əsgərovun sürücüsü Əliyə şikayət yazdırıblar. Guya oğlum ondan 50 min manat pul alıb və qaytarmayıb. Elnar Əsgərovun sürücüsü niyə oğluma pul verməli idi? Mirqafar Seyidov dedi ki, mən bu işi ədalətlə aparacağam. Elə də etdi. Arif Əsgərovu Daxili İşlər Nazirliyinə çağırdılar. Dedilər ki, bir adama 1000 manat pul verəndə sənədə qol çəkdirirlər. 5-10 milyon manat oyuncaqdır kı, vermisiz? Arif Əsgərov demişdi ki, aydındır. Ondan sonra ödəmə başladı. Müstəntiqin yanına pulları aparırdıq. Seyf pulla dolurdu. Şikayətçiləri çağırırdılar, pulu ödəyirdilər. Şikayətçi, müstəntiq, yoldaşım və mən protokolu imzalayırdıq. Bu gün Elnar Əsgərov deyir ki, guya pullar bizim olub, aparıb ödəmişik. Bu qədər vicdansızlıq olmaz. Bütün Tovuz rayonu bilir ki, mənim gücüm 3-5 min manata çatar. Milyon məndə haradandır ki, aparıb borc verim".








İsmayıl Hüseynov oğlunun həbsdə öldürüləcəyini deyir: “Rahib Hüseynova deyib ki, sənə bayırda toxuna bilmirik, içəridə başına oyun açacağıq. Rahib mənə deyib ki, içəridə məni öldürəcəklər. Arif Əsgərovun bu işlərin 70-80 faizindən xəbəri yoxdur. Bu işlərin başında onun oğlu dayanır. Yoldaşı dayanır. Onun oğlu Elnar İngiltərədə oxuyanda nə oyunlar açıbsa, bu gün də həmin oyunların başqa formasını davam edir. O vaxt ərəbi özünün yerinə imtahana salmışdı. 2 milyon pul verib qurtardılar. O vaxt 2 milyonu ödəyəndə Arif Əsgərovun xəbəri yox idi. Ərəbə də pul verib yola saldılar. Bu gün Qoşqarın pulunu qəsdən vermirlər. Ona 1 milyon 800 min manat borcları var. 5 milyona qədər pul almışdılar ondan. Qalanını qaytarıblar. Elnar Əsgərov Ziya Məmmədovun oğlu Anar Məmmədovla iş görürdülər. Tikinti də edirdlər, atalarından pul alırdılar. Dəmir yolunun təchizatı işi ilə məşğul olurdular. Oğlum da qeydiyyat aparıb. Kitablar da evdədir. Mən danmıram ki, onların işlərindən pul verirdilər. Bu gün Elnar deyir ki, xalam da, xalamın yoldaşı da dələduzdurlar. Elnar dələduzluğa İngiltərədə başlayıb. Bu gün də davam edir”.

İ.Hüseynov deyir ki, övladlarına qarşı ittihamlarla razı deyillər, iş üzrə yenidən istintaq aparılmasını, bu işlərin başında dayanan şəxsin istintaqa cəlb olunmasını tələb edirlər.

Qeyd: Redaksiya yazıda adları çəkilən şəxslərin də mövqeyini dərc etməyə hazırdır.

**❑ E.MƏMMƏDƏLİYEV,**
**Fotolar E.ƏKBƏR,**
**“Yenì Müsavat”**

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Qarabağ üçün dekabr akkordları - ilsonu təmaslar nə vəd edir?

## Bu həftə ATƏT toplantısı çərçivəsində Dağlıq Qarabağ konflikti də diqqət mərkəzində olacaq; **rusiyalı hərbi ekspert:** "Azərbaycan bacardıqca böyük müharibəyə hazır olmalıdır..."

**Bu həftə - dekabrın 6-7-də İtaliyanın Milan şəhərində ATƏT Xarici İşlər Nazirləri Şurasının illik toplantısı keçiriləcək. Toplantı çərçivəsində keçiriləcək ikitərəfli görüşlərdən birinin ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında olacağı gözlənilir. Bundan əlavə, gələn xəbərlərə görə, Rusiya xarici işlər naziri Sergey Lavrov səviyyəsində Qarabağa dair "predmetli müzakirələr" aparılacaq.**




Bunu Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova mətbuat konfransında deyib. O bildirib: "Nazirin çıxışı ATƏT gündəliyi ilə bağlı bütün məsələləri, xüsusilə də Rusiyanın birbaşa iştirak etdiyi məsələləri əhatə edəcək. İkitərəfli görüşlər də olacaq və bu görüşlər zamanı bu problem daha predmetli şəkildə müzakirə olunacaq. Orada, əlbəttə ki, konkret addımlar və ya konkret təkliflər müəyyənləşdiriləcək".

Lakin ilsonu akkord xarakteri daşıyan bu müzakirələrdən real nəticə gözləməyə dəymir. Bu, olsa-olsa, bir daha "saat əqrəblərini tutuşdurmaq" cəhdi kimi yadda qala bilər. Çünki ən azından, Ermənistanda 9 dekabrda keçiriləcək erkən parlament seçkilərinin nəticələrini gözləmək lazım gələcək. Daha önəmlisi isə, əlbəttə ki, Ermənistanın işğal ortağı Rusiyanın nə dərəcədə Dağlıq Qarabağa dair sülh prosesinə diplomatik təkan verməyə hazır olub-olmaması ilə bağlıdır.

Rusiyanın başı isə indi daha çox Qərblə, ABŞ-la, Ukrayna ilə münasibətləri aydınlaşdırmağa, özünə qarşı getdikcə bir az da ağırlaşan sanksiyaların təsirlərini azaltmağa qarışıb. Dağlıq Qarabağ ixtilafının dinc həll perspektivinə öncəliklə bu reallığın prizmasından baxmaq lazım gəlir.

*****

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bu xüsusda hesab edir ki, Rusiya əslində Krım məsələsi ilə özünü tələyə salıb (teleqraf.com): "Rusiya hələ də bu tələdə qalır. Elə bizimlə münaqişədə olan Ermənistan haqqında da eyni fikri söyləmək mümkündür. İlk baxışdan belə görünür ki, guya Ermənistan qələbə çalıb, torpaqlarımızı işğal edib. Amma məlum olur ki, bu, onlara qələbə gətirməyib. Əksinə, gündən-günə vəziyyətləri pisləşir".

Eks-diplomat şübhə etmir ki, Ermənistan gec-tez məğlub olacaq: "Ermənistandakı erkən parlament seçkilərinə gəlincə, bu seçkilərdən yeni bir şey gözləmirəm. Əsas məsələ ondan ibarətdir ki, Qərb Paşinyanı qərbpərəst siyasət həyata keçirməyə məcbur edəcək. Qərb çalışacaq ki, Ermənistanda Rusiya nüfuzunu azaltsın. Paşinyan da istər-istəməz bu yolla getməlidir. Amma Paşinyan başda olmaqla bütün erməni siyasətçilər anlayırlar ki, Ermənistanın Azərbaycana və türk dünyasına qarşı siyasətinin əsas potensialı və bünövrəsi Rusiya tərəfdən olan dəstəklə bağlıdır. Əgər Rusiya tərəfindən hərbi dəstək olmasa, Ermənistanın siyasətində korreksiya olmalıdır. Rusiyadan dəstək almadan belə bir siyasət davam edə bilməz. Ermənistanda böhranlı vəziyyət Sərkisyanın vaxtında da özünü göstərirdi. Rusiya istəyirdi ki, Qərbin təzyiqi altında və daxili problemlər səbəbindən Ermənistandan uzaqlaşsın. Ermənistan bunu hiss edə-edə qərbyönlü siyasət ortaya çıxarır. Paşinyan bu planı icra edən siyasi fiqurdur. Hesab edirəm ki, Paşinyan Qərbdən siyasi dəstək alacaq və Ermənistan parlamenti onun nəzarətinə keçəcək. Ancaq biz anlayırıq ki, həm qərbpərəst olmaq, həm də Rusiyadan hərbi dəstək almaq mümkün deyil".

*****

Bu, sözsüz ki, belədir. İşğalçı ölkə eyni zamanda Rusiyanın və Qərbin (ABŞ-ın) dəstəyinə ümid edə bilməz. Demək, Azərbaycan Ermənistan ətrafındakı prosesləri xüsusi diqqətdə saxlamaq zorundadır. Çünki hansısa məqamda Qarabağ üçün əlverişli fürsət yarana bilər. Söhbət həm də lokal hərbi əməliyyatlardan gedir.

"Azərbaycan mümkün olduğu qədər böyük müharibəyə hazır olmalıdır". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a rusiyalı hərbi ekspert Aleksey Xlopotov deyib.

Ekspert bildirib: "Ermənistan daxili-siyasi və iqtisadi problemlərlə silkələnir. Əgər Ermənistan əvvəllər Rusiyanın siyasi kilvaterində kifayət qədər sıx şəkildə irəliləyirdisə, indi ölkə hakimiyyətinin dəyişməsindən sonra siyasi fırtınaların dalğaları onu bir istiqamətdən digərinə atır. Ermənistana ABŞ və İranın təsiri artır. Belə vəziyyətdə yeni və böyük münaqişə yaranması ehtimalı böyükdür. Buna görə də Azərbaycan mümkün olduğu qədər böyük müharibəyə hazır olmalıdır".

Azərbaycan Silahlı Qüvvələrinin hərbi hazırlığı və texniki təminatı barədə danışan ekspert ordumuzun bir sıra ölkələrdən aldığı ən müasir hərbi məhsullar sayəsində regionunun aparıcı gücünə çevrildiyini də vurğulayıb. Analitikə görə, məsələn, Belarusdan "Polonez", İsraildən isə LORA silahlarını əldə etməsi Azərbaycanın Cənubi Qafqaz regionunda dominantlıq etməsinə gətirib çıxarıb.

"Qarabağdakı münaqişənin kəskinləşəcəyi, xüsusən BMT qətnamələrinə əsasən öz torpaqlarında işğalı aradan qaldırmağa tam mənəvi haqqı olan Azərbaycanın aktiv fəaliyyətə başlayacağı halda Rusiyanın necə davranacağı heç də aydın deyil. Ona görə də Azərbaycanın müxtəlif ölkələrin ən yaxşı istehsal modellərinə sahib olması məqsədəuyğun və məqbuldur", - ekspert fikrini tamamlayıb.

*****

Məsələ də elə Rusiyanın hansı mövqe sərgiləməsindədir. Aydındır ki, Dağlıq Qarabağ münaqişəsi zonasında hazırkı status-kvo Rusiyaya əl verir. Az qala, bütün dünya ilə konfrontasiya vəziyyətində olan Rusiyaya daha bir qaynar münaqişə ocağı lazım deyil. Üstəlik, Qarabağda müharibə onun Türkiyə və Azərbaycanla münasibətlərini eyni vaxtda ciddi sınaqla üz-üzə qoya, Moskva Gürcüstanın ardınca regiondakı bu iki vacib dövləti itirə bilər.

Lakin münaqişə hazırkı vəziyyətdə uzun müddət davam da edə bilməz. Onun həllinə real təkan vermək vaxtı çatıb. Bunu isə nə qədər yaxasını kənara çəkməyə çalışsa da, ilk növbədə Moskva edə bilər. Moskva isə tələsmək istəmir. Demək, bununla öz maraqlarını da risk altında saxlamış olur...



## "Müharibə başlasa, vay halımıza..." - erməni siyasətçi

**"Nikol Paşinyanı Qarabağ və onun problemlərindən kilometrlərlə aralı tutmaq lazımdır. Onun qədər Azərbaycan təbliğatçılarına yardım edən heç bir Ermənistan lideri olmayıb. Azərbaycan mətbuatında yazılanlara baxın. Görün, baş nazir haqqında nələr yazırlar".**

Musavat.com Ermənistan mediasına istinadən xəbər verir ki, bu sözləri Ermənistan Milli Assambleyasının xarici əlaqələr komissiyasının keçmiş sədri, keçmiş təhsil naziri, hazırda isə Serj Sərkisyanın Ermənistan Respublika Partiyasının (ERP) liderlərindən Armen Aşotyan jurnalistlər qarşısında keçirdiyi brifinqdə söyləyib.

Aşotyan Qarabağ münaqişəsi ətrafında gedən müzakirələrin gedişindən və Ermənistanın indiki hakimiyyətinin hərəkətlərindən olduqca qəzəbli və narahat olduqlarını dilə gətirib: "Bu hakimiyyət Ermənistanın maraqlarını müdafiə etmək qabiliyyətində deyil. Onlar Qarabağda güddükləri başqa məqsədlərə işi yerli hakimiyyətin (oyuncaq qondarma rejimin) üzərinə yıxaraq nail olmaq istəyirlər".

Jurnalistlər Aşotyandan Paşinyanın "keçmiş iqtidarın ordunu talan etməsi" ilə bağlı sözlərinə reaksiyasını öyrənmək istəyiblər. "Paşinyanın nə Qarabağ, nə də ordu haqqında danışmağa heç bir mənəvi haqqı yoxdur. Əgər müharibə vəziyyəti yaransa və ordumuzun başında Nikol Paşinyan dayansa, o zaman vay bizim halımıza...", - deyə o əlavə edib.

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018



# ABŞ Türkiyəni seçim qarşısında qoydu: "Ya Qərb, ya da Rusiya..."

## Əhəd Məmmədli: "Ankara da ABŞ-a onunla PKK arasında seçim tələbi qoymalıdır"

**Türkiyə Rusiya və Qərb ölkələri arasında seçim etməlidir. Trend-in məlumatına görə, bu barədə ABŞ Senatının silahlı qüvvələr üzrə komitəsinin yeni rəhbəri Ceyms İnhof bildirib. C.İnhof deyib: "Əgər Türkiyə F-35 proqramında qalmaq istəyirsə, onlar Rusiyadan S-400 sistemləri almaqdan imtina etməlidirlər".**

O əlavə edib ki, Türkiyə ABŞ-ın NATO üzrə çox mühüm tərəfdaşıdır və onlar bu statusa uyğun fəaliyyət göstərməlidir: "Türkiyə Rusiya və Qərb arasında seçim etməlidir". ABŞ Senatı rəsmisinin bu açıqlamasından göründüyü kimi, qardaş ölkə açıq şəkildə seçim qarşısında qoyulur.

Politoloq Əhəd Məmmədli bildirdi ki, ABŞ üçün başqa ölkələrin daxili işlərinə qarışması viski içmək kimi bir şeydir: "ABŞ-ın bu cür reaksiyasına təəccüblənmək lazım deyil. Vaşinqton öz ampulasındadır. ABŞ Türkiyənin Rusiya və Qərb arasında seçim etməsini istəyir. Lap yaxşı. Onda cavabında Ankara da ABŞ-a onunla PKK arasında seçim etmək tələbini irəli sürməlidir. ABŞ Suriyada PKK-YPQ-PYD terror təşkilatına 5 min "Tır" havayı silah göndərib. 5 min tır silah-sursat bilirsiniz nə deməkdir? Bir "Tır"ın uzunluğu 25 metr civarındadır. 5 min tır silah Azərbaycan kimi ölkənin silah-sursatından daha çox deməkdir. Burada deyərlər, ayıbına kor ol. Türkiyə Rusiyanın qırıcısını vuranda NATO Ankaranı Moskva ilə üz-üzə qoydu - baxmayaraq ki, NATO nizamnaməsinə uyğun olaraq üzvü Türkiyənin yanında olmalı idi. Avropa Birliyi paytaxtı Brüsseldə parlament binasının yanında PKK-ya dəstək olaraq çadır qurulur. ABŞ-la bərabər Almaniya, Fransa, İsrail PKK terror təşkilatı ilə sıx təmasda olur, terrorçuları silahlandırıb onlara hərbi təhsil verib Türkiyənin üstünə salırlar. Amerika başda olmaqla Qərbin mənəvi haqqı yoxdur Türkiyə ilə tələblə danışmağa. Türkiyə ancaq bir halda Rusiya ilə yenidən əməkdaşlığa baxar: o da Qərb ölkələri birdəfəlik PKK ilə bütün təmaslarını kəsdiyi halda. Bu günlərdə Argentinada keçirilən G20 ölkələrinin sammitində Ərdoğanla Putin yenə də təkbətək görüş keçirdilər. Putin Türkiyəni vacib tərəfdaş adlandırdı. Ağ Evdə də yaxşı bilirlər ki, Türkiyə artıq o Türkiyə deyil ki, onunla hədə-qorxu dili ilə danışasan. Sadəcə, Vaşinqton bununla göstərmək istəyir ki, S-400 məsələsində çox narazıdır. Zatən F-35 razılaşması da ABŞ-ın ucbatından baş tutmadı. Türkiyə F-35 kodunu istədi, bunu ona vermədilər. Türkiyə Səudiyyə Ərəbistanı deyil ki, Amerikadan milyardlarla silah alsın və o silahların kodu onlara verilməsin. Əgər aldığın silahların parolu sənə verilmirsə, o silahların səndə olmasının heç bir mənası yoxdur. Kamalistlərin dövründə Türkiyə də Səudiyyə vəziyyətində idi. Şükürlər olsun ki, artıq o qara dövrlər qardaş ölkə üçün geridə qalıb. Artıq Türkiyə müstəqil siyasət sürür, ona görə də fərqi yoxdur. ABŞ və ya Rusiyadan aldığı silahların kodunu istəyir. Türkiyənin buna cavabı yuxarıda qeyd etdiyim kimi, PKK və onu Suriya uzantısı YPQ ilə ABŞ-ın bütün əlaqələrinin kəsilməsi olmalıdır. Türkiyə tərəfindən Menbic əməliyyatının keçirilməsinə ABŞ maneçilik törətməməlidir. Ümumiyyətlə, Şimali Suriya tamamilə ateist-marksist terrorçularından təmizlənməlidir. ABŞ-ın bu məsələlərdə güzəştə getməsindən sonra Türkiyə də Rusiya ilə münasibətlərinə yenidən baxa bilər. Təbii ki, ABŞ çox narahatdır. Türkiyə-Rusiya münasibətlərindən və hər vəchlə bu münasibətlərə zərər vurmaq istəyir. Türkiyə tərəfindən rus qırıcısının vurulması, Türkiyədə rus səfirinin güllənməsi bunlar hamısı eyni tərəfin iş tərkiblidir. Türkiyə-Rusiya arasında münasibətlərin pozulmasını çoxları istəyir - ABŞ, İran, Səudiyyə, Almaniya, Suriya, İsrail kimi ölkələr. Türkiyə və Rusiya daxilində də bu iki dövlət arasında münasibətlərin pozulmasını istəyənlər az deyil və onlar hələ də hər iki ölkə içində güclüdürlər. Türkiyə içində bu qüvvələr gladio, FETÖ, PKK qırıntılarıdır. Hər an bu qırıntılardan növbəti zərbələr, xuntalar gözləmək olar. Ehtiyatı əldən vermək olmaz. Rusiya daxilində bunlar slavyanofillər, yəhudi, erməni lobbiləridir. Tarix boyu türk-slavyan qarşıdurmasından qazanan tərəf Qərb olub. Bu siyasəti davam etdirib yeni türk-rus qarşıdurması qurmaq istəyirlər. Onsuz da rus qırıcısının vurulması olayında az qala buna nail olmuşdular. O saatda olmasa da, Ərdoğan və Putinin müdrik siyasəti nəticəsində bunu qarşısı alındı. Yeni türk-rus qarşıdurması nə Türkiyəyə, nə də Rusiyaya lazımdır. Türkiyəyə heç lazım deyil. Çünki hər tərəfdən düşmənlərdir. Türkiyə rus qırıcısı olayında olduğu kimi yeni türk-rus qarşıdurmasında da təklənəcək. İndiki halda isə qardaş ölkəyə təklənmək vəziyyətinə düşmək qətiyyən olmaz. Böyüməkdə olan Türkiyəyə bir az da vaxt lazımdır. Türkiyə nüvə derjavaçı olmalıdır. Bundan sonra Türkiyə özü prosesləri tək başına diktə etmək gücündə olacaq. Mən prosesləri bu istiqamətdə görürəm".



❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# G20 sammiti nələrlə yadda qaldı - ekspert şərhi

## "Böyük İyirmilik, Böyük Səkkizlik kimi formatların önəmi qalmayıb"

**Argentinanın paytaxtı Buenos Aires şəhərində keçirilən G20 sammiti başa çatdı. Bu iclas Rusiya - Ukrayna gərginliyi və Çinlə ABŞ-ın ticarət qalmaqalı fonunda keçirildi. Sammit ciddi gərginliklərlə yadda qaldı.**

Xüsusilə, ABŞ prezidenti Donald Trampın rusiyalı həmkarı Vladimir Putinlə əvvəlcədən planlaşdırılan görüşdən imtina etməsi geniş müzakirə mövzularına səbəb oldu. Sammitin Türkiyə və dünya üçün önəmi barədə ekspertlər fərqli mövqelər sərgiləyirlər.

Beynəlxalq münasibətlər üzrə mütəxəssis Nəzakət Məmmədova sammitlə bağlı "Yeni Müsavat"a bunları dedi: "Böyük İyirmiliyin Argentinadakı sammiti dünyanın ayrı-ayrı bölgələrindəki gərginliklərlə yadda qaldı. Sammitin əsas mövzusu qarşıdakı 10 ildə ədalət və dünya inkişafının dayanıqlılığı olsa da, hazırda dünyanın hegemon gücləri arasında gedən nüfuz savaşı, müharibələr, yoxsulluq və s. bu məsələyə böyük ümidlərlə baxmağa imkan vermir. ABŞ-Çin ticarət müharibəsi, miqrasiya problemi, Rusiyanın ABŞ və Avropa Birliyi ilə münasibətləri, Türkiyə və Səudiyyə arasında gərginlik sammitdə diqqət yetirilən əsas istiqamətlərdir. ABŞ və Çin arasında "əsrin savaşı" deyilən ticarət müharibəsi sammitin əsas mövzularından idi. Trampın Çindən idxal olunan məhsullara tarifləri artırmaq planları Çini bir sıra problemlərlə üz-üzə qoymaqla yanaşı, ABŞ-Çin gərginliyini artıra bilər. Sammit həm də ABŞ və Avropa arasında ticarət və ekologiya mövzusunda qarşıdurmanın artması dövrünə təsadüf edirdi. ABŞ-ın Hamburqda ekologiyanın mühafizəsinə dair yekun sənədi imzalamaqdan imtina etməsi, Fransanın vahid Avropa yaratmaq planlarına bəzi ölkələrin dəstək verməsi və s. köhnə qitə ilə yeni qitə arasında narazılığı gücləndirib. Sammit məhz belə bir zamanda keçirildi. ABŞ və Meksika arasında miqrasiya problemi də sammitin diqqət yetirdiyi problemlərdən oldu. Bu da onunla bağlıdır ki, hələ Tramp seçki kampaniyası dövründə bu məsələyə xüsusi diqqət yetirəcəyini vəd etmişdi. ABŞ, Meksika və Kanada arasında miqrasiya məsələlərinin tənzimlənməsi Amerika qitəsinin vacib problemlərindəndir. Türkiyə və Səudiyyə Ərəbistanı arasında baş verən Qaşıqçı hadisəsi ucbatından iki ölkənin bir-birinə ittihamları da sammitə təsirsiz ötüşə bilməzdi. "Human Rights Watch" təşkilatı Argentina hökumətinə sorğu göndərərək Səudiyyə vəliəhdi Məhəmməd ibn Səudin sammitə gələcəyi təqdirdə onu həbs etməyi tələb etmişdi. Rusiya-ABŞ, Rusiya-Avropa Birliyi münasibətləri də sammitdə diqqət mərkəzində olan məsələlərdən olub. Bu məsələ, xüsusilə, Rusiyanın Krımı öz nəzarəti altına almasından sonra Azov dənizində və Kerç boğazındakı son dövrlərdəki fəaliyyəti kontekstində daha da aktuallaşıb. Anqlosaksonların, kontinental Avropanın və Rusiyanın birləşməsi və Asiya-Sakit okean təsirlərinə qarşı dayana bilən qütb yaratması planları da məhz onların Rusiya ilə qarşıdurması fonunda inandırıcı görünmür. Sammitdə dünyanın iki ən qüdrətli iqtisadi gücü olan ABŞ və Çin arasında ticarət savaşı ətrafında aparılan müzakirələr onu deməyə əsas verir ki, Tramp hazırkı dünya sistemini dağıtmaq yox, onu yeniləmək və ölkəsinin burada rolunu gücləndirmək niyyətindədir. Almaniyanın sərt büdcə siyasəti ucbatından Aralıq dənizi və Balkan ölkələrinin Çin kapitalına ehtiyac duyması ABŞ-a böyük problemlər yaradır. Trampın Avropanı Çinlə ticarət savaşına sürükləmək istəməsi baş tutmadığı üçün ABŞ Avropaya siyasi təzyiq vasitələrini işə salmaqda davam edir.



Sammitdə ABŞ və Çin arasında ticarət müharibəsinin həlli Avropanı narahat edən ən əsas iqtisadi məsələ idisə, Ukrayna ilə bağlı problem də təhlükəsizlik məsələsi idi. Bu məsələ Trampla Putin arasında görüşdə müzakirə oluna bilərdi. Amma bildiyimiz kimi Tramp sammit ərəfəsində Putinlə görüşməkdən imtina etdiyini bildirdi. Sammit çərçivəsində isə rəsmi deyil, yalnız ötəri qeyri-rəsmi söhbətin baş tutduğu deyilir. Bu görüşün baş tutmaması üçün Ukrayna çox çalışmışdı. Bu ilin iyulunda Trampla Putin arasında Helsinki görüşündən sonra ABŞ-da respublikaçılar Rusiyaya qarşı təzyiqləri artırdılar, Skripal hadisəsi əsas götürülüb Rusiyaya sanksiya tətbiq olundu, oktyabr ayında isə Tramp 1987-ci il orta və yaxın mənzilli raketlərin ləğvi müqaviləsindən çıxmaq istədiyini bildirdi və s. Lakin bütün bunlara rəğmən, Rusiya siyasi texnoloqları Gürcüstandakı seçkilərə istədikləri kimi müdaxilə edib qələbə qazanırsa, Donbasda Ukrayna hərbçilərinin mövqeyini atəşə tutursa, Bako Saakyan ABŞ və Fransa səfərlərindən sonra gedib Moskvaya hesabat verirsə, bu, Rusiya ABŞ-ın bütün təhdidlərinə baxmayaraq, postsovet regionunu öz maraq dairəsi hesab edir deməkdir və G-20 sammitində bunun həllini gözləmək sadəlövhlük olardı. Ukraynanın Azov dənizindəki gəmi insidentinin tək nəticəsi də sammitdə Trampın Putinlə rəsmi görüşdən imtinasından başqa bir şey olmadı. Keçmiş sovet respublikalarına öz irsi torpaq mülkiyyəti kimi baxan Rusiyanı beynəlxalq hüquqa hörmət etməyə vadar edən bir mexanizm yoxdursa, o zaman Böyük İyirmilik, Böyük Səkkizlik sammitlərinin heç bir önəmi qalmır. Bu sammit də göstərdi ki, Böyük İyirmilər ümumdünya sülh, təhlükəsizlik, dayanıqlı inkişafa yox, öz maraqlarına uyğun məsələlərin həllinə daha çox diqqət ayırırlar".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Gənc qızların "ər axtarıram" mesajlı statusları

## Onların əksəriyyəti müasirlik adı ilə abırsızlığı cəmiyyətə sırımağa çalışır; **Mehriban Zeynalova:** "Bu, qəti qəbulolunan proses deyil..."



**Müasirlik, azadlıq deyərkən, sanki bəzi dəyərlərimizi də itirməkdəyik. Bir vaxtlar hamilə qadınlar qayınata, qayın və digərlərinin yanında çox görünməməyə çalışardısa, indi USM-nin cavabını sosial şəbəkələrdə paylaşırlar. Hələ nənələr subay qızlara "ərə gedəcəksən, yoxsa gora" sualını verəndə, utandıqlarından "gora" deyə cavab verərdilər.**

İndi isə ərə olan həvəs onları hətta sosial şəbəkələrdə status yazmağa, "ər ovuna" çıxmağa vadar edir. Dindirsən "ərə getmək nədir, mənim 30-35 yaşına qədər ərə getmək fikrim yoxdur" desələr də, fikirlərilə etdikləri uzlaşmır. Hətta bəzi anaların "filankəs ikinci dəfə ərə getdi, sən özünə bir oğlan tapa bilmirsən" tənəsi gənc qızların yanlış addım atmasına səbəb olur. Əksəriyyəti də müasirlik adı ilə abırsızlığı cəmiyyətə sırımağa çalışır. Əks münasibət göstərənləri isə "geri kafalı", "köhnə fikirli" adlandırırlar. Bəs dəyərlərimizin dəyərsizləşməsinin səbəbi nədir?

Məsələ ilə bağlı Modern.az-a danışan "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bu kimi halların qəbuledilməz olduğunu bildirir: "Hər ölkənin özünün davranış modeli var. Adətən mənim yaşda olanlar üçün bu cür hallar bir az təəccüblü gəlir. Qadın adətən kiminsə ona evlənmək təklifini gözləməlidir, özü kiməsə bunu təklif etməməlidir. Qadın tərəfindən təklifin verilməsi qəti qəbulolunan bir proses deyil. Mənə hansısa kişi deyəndə ki, "qadın özü nömrəsini mənə verdi" təəccüb edirəm. Mən deyirəm ki, bu, ola bilməz. Mənə görə heç bir qadın bunu etməz. Amma zaman dəyişir, mühit dəyişir, fikirlər, hadisələrə baxış dəyişir. Hindistan kimi geridə qalmış ölkədə də qadınlar kişilərə evlənmək təklifini edirlər. Zəmanənin müxtəlif tələbləri olur. Təbii ki, ağır oturub, batman gəlmək daha yaxşıdır. Amma kimlərsə ailə qurmaq üçün bunu tezləşdirməyə çalışırsa belə, hər kəsin öz seçimi var. Biz buna qarışa bilmərik. Kiməsə deyə bilmərik ki, bu pisdir, etmə".



M.Zeynalova hesab edir ki, bu cür tələskənlikdə bir məqsəd var, o da ərə getməkdir: "Amma istənilən halda tələskənlik təəccüb doğurur. Eyni zamanda, tələskənlik çox təhlükəli ola bilər. Qız hansı formada ərə getməyi seçir: özümü təklif edir, yoxsa qarşı tərəfmi təklif edir, bu artıq müasir dünyanın davranışlarına bağlı məsələdir. Biz nə qədər qaçmağa da çalışsaq, müasir dövrün tələblərilə qarşılaşmalı, uzlaşmalı oluruq. Amma yalnız ər xatirinə, "ərə getdim" demək üçün ailə qurmaq və bir müddət sonra problemlərlə yaşamağa vadar olmaq yaxşı hal deyil. Məsləhətlidir ki, ailə quracaq tərəflər bir-birini daha yaxşı araşdırıb nikaha daxil olsunlar. Keçmişdə gənclər ailə qurmazdan əvvəl böyüklər araşdırma aparırdı, qız tərəf oğlanı, oğlan tərəf qızın özü və ailəsilə maraqlanıb məlumat toplayırdı. İndi belə şeylərə bir az pis baxırlar. Amma edilmədiyi halda, fəsadları da çox olur.

Ümumiyyətlə, mən çox müasir adamam. Amma elə şeylər var ki, hətta onları qəbul etmək iqtidarında belə deyiləm, anlamıram və qəbul edə bilmirəm. İnsan irəli getmək, karyera qurmaq üçün prinsipial ola bilər. Amma bu cür formada özünü təqdim etməyi doğru sayılmır. Ətrafımda olanlardan bu cür hərəkət görməmişəm deyə, mənə təəccüblü gəlir. Mənim ətrafımda olanlar bunu etmir. Edənlər də bəlkə də gəncliyin gətirdiyi hava ilə edir və düşünür ki, ətrafdan yaxşı görünür. Amma əksinə, bu cür hallar əksərən əks-effekt verir. Onları kənardan izləyən kişilərin düşüncələrində heç də yaxşı iz qoymurlar".

Qadın hüquq müdafiəçisi gənclərin sosial şəbəkələr üzərindən "ərə getmək istəyirəm" mesajını vermələrinin səbəbsiz olmadığını vurğulayır: "Mən düşünmürəm ki, hamı kütləvi şəkildə ərə getmək istəyindədir. Ətrafımda 28, 29, 30 və daha yuxarı yaşda olan və ərə getmək haqqında düşünməyən qızlar var. Ailə qurmağı əsas prioritet hesab etməyən qadınlarımız da var. Amma ərə getmək fikrilə onların, olduqları mühitdən, ailədən qaçmağa can atmaları müşahidə edilir. Ailə basqısı, ailədəki sosial çətinliklər, bəzən hətta zorakılığa yönəlik davranışlar qızları əlacsız ər axtarışına sövq edir. Ailə qurmağı müasirlik hesab edənlər var. Çox vaxt ailədə münasibətlər yaxşı olmur. Ailədə münasibətlər normal olanda gənclər sağlam düşünür, səhv addım atmağa vadar olmur, nə olur olsun, ərə gedim, canımı qurtarım deyib başqa problemlərlə qarşılaşmırlar. Müəyyən yaş dövrü var ki, 15-16 yaşlarında müəyyən həvəslənmələr ola bilər. Amma bu həvəslənmədə ailənin rolu o olmalıdır ki, yeniyetmənin çılğın vaxtında düşünülməyən addımlarının qarşısını alsın, onunla söhbət etməyi bacarsın. Bundan sonra proseslər özü tənzimlənəcək. Ailədə sevgi yoxdursa, təbii ki, kimsə oradan qaçmağa çalışacaq".

# Yeni doğulmuş uşağın genini dəyişdirdiyini iddia edən çinli alim

## "Uğurumdan qürur duyuram"; **britaniyalı alim:** "Bunun adı canavarlıqdır"

**Çində süni mayalanma ilə əmələ gələn embrionların DNK-sını dəyişdirərək, AİDS-ə qarşı immunitet yaratdığını iddia edən alim He Jiankui, insan genlərini dəyişməyin etik olmadığını söyləyənlərə qarşı özünü müdafiə edib.**

Musavat.com bu barədə xarici mediaya istinadən məlumat verir. Honq Konqda təşkil olunan bir görüşdə çıxış edən He öz işi ilə qürur duyduğunu və ikinci bir uşağın genini dəyişdirməyi bacardığını söyləyib.

He Jiankui süni mayalanma zamanı HİV virusunun hüceyrələrə daxil olmasına imkan yaradan CCR5 genini DNK zəncirindən kənarlaşdırdığını iddia edir. Çinli alimin bu yeni işi hələlik heç bir qurum və ya digər alimlər tərəfindən təsdiq olunmayıb. He Jiankuinin işlədiyi Cənubi Şenzen Elm və Texnologiya Universitetinin rəsmiləri də sözügedən kəşfdən xəbərsiz olduqlarını bildirib.




Çox sayda alim sağlam embrionların üstündə belə bir təcrübənin aparılmasının heç bir etikaya sığmadığını söyləyir. He Jiankui Lulu və Nana adını verdiyi əkizlərin sağlam şəkildə dünyaya gəldiklərini və 18 yaşlarına qədər onları nəzarətdə saxlayacağını bildirib.

HİV virusu daşıyan kişilərdən hamilə qalmış 7 qadının təcrübəyə cəlb olunduğunu bildirən He onlarla könüllü şəkildə bu prosesə başladığını da qeyd edib.

Yerli mətbuata müsahibə verən Britaniyadakı Oksfort Universitetinin professoru Julian Savuleku "Əgər belə bir araşdırma realdırsa, bunun adı canavarlıqdır. İnsan genetikası ilə oynamaq heç bir etik normaya sığmır. Heç kim də bunun siğortasını verə bilməz ki, bu uşaqlar böyüyəndə sağlam olacaqlar", - deyə vurğulayıb.

❑ **MƏLEYKƏ, Musavat.com**

# Kimi keçəl ediblər?



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Bu cəmiyyət var olduqca, bizim təəccüblənmək hissimiz də itməyəcək. Daim adrenalinimiz yüksək olacaq, şoka girəcəyik, saatlarla danışmağa, dartışmağa mövzu tapacağıq. İki gündür yurdumun insanı nəyi müzakirə edir, bilirsizmi? Xəyanət edən arvadının saçını qırxıb, videoya çəkən və bunu paylaşan kişinin hərəkətini. Heyrətlə izləyirəm: iki vur iki, bərabərdir qədər aydın olan bir gerçəyin bir cavabı yoxmuş sən demə. 5 də ola bilərmiş cavab, 15 də, 155 də... Yəni, burda vahid mövqe olmalıdır, deyilmi? Xəyanət yanlış olduğu kimi, onun bu formada ifşası da qəbul edilməzdir. Vulqardır, ibtidaidir, vəhşiliyin əlifbasıdır. Bəs biz niyə bu mövzunu dartışmaya açıq qoyuruq axı? Bunu edən kişi ən yaxşı halda polisə verilməli, həbsə girməlidir, halbuki alqışlanır. Halbuki qəhrəman münasibəti göstərilir.**

Kim kimə niyə, kiminlə, nə zaman xəyanət edib, vecimə də deyil. Maraqlanmıram da, detallarını öyrənməyə can da atmıram. Burda məni təsirləndirən iki məqam var. Adına ata deyilən zat iki uşağının gələcəyini, onların cəmiyyətdə düşəcəyi durumu düşünmədən bu ağılsızlığı edir. Özünün qürurunu, namusunu düşünən kişi iki övladının gələcəyini, psixoloji durumunu ayaqlar altına alır. Harda qaldı atalıq, övlad sevgisi, ailə təəssübkeşliyi?

Dediyim kimi, hərənin xəyanət faktoruna yanaşması müxtəlif cür ola bilər. Xarakterdən, gördüyü ailə tərbiyəsindən, əsəblərinin durumundan, yetişdiyi şəraitdən, hətta və hətta dünyagörüşündən, təhsilindən asılı olaraq reaksiyalar fərqlidir. Xəyanətə uğradığını eşidən kişi qadına qapını da göstərə bilər, məhkəməyə də gedər, özü pencəyini götürüb evdən də çıxar. Bu, bizim bildiyimiz ən sivil versiyalardır. Unutmaq, iqnor etmək, varlığını heçə saymaq, həyatının bütün guşələrindən silmək. Bundan böyük cəza olarmı? Amma ibtidai təfəkkürlə məsələyə yanaşıb, daşlama siyasəti, keçəl edib, küçəyə qovma... 21-ci əsrdə yaşadığınızdan əminsiz? Əlinizdə müasir telefon, instaqrama girirsiz, ən yeni dəb maşın sürməyə çalışırsız, amma təfəkkür 5-ci əsrdə qalıb. Şəhrizadın nağılları niyə yaranıb bilirsizmi? Padşah ona xəyanət edən arvadını öldürüb. Onun qisasını isə digər qadınlardan alıb. Hər gün biri ilə gecə keçirib, səhəri gün onu öldürüb. Bəli, 21-ci əsrdə bunu etmək bir az absurddur, amma keçəl etmək mümkünmüş sən demə.

Məni təsirləndirən ikinci məqam həmkarlarımızın düşdüyü durumdur. Sözügedən video bir çox saytlarda yayılıb. Qadının üzü qapadılmadan. Düzdür, başdan-ayağa "biip"lə dolu videodakı söyüşləri eşitmirik, amma qadının üzünü açıq şəkildə görürük. Həmkarlar, nə etməyə çalışırsız? İP yığmağa? Allah kəssin o reytinqi. Sizin o kişidən nə fərqiniz var axı? İndi bu videonu təkcə Azərbaycanda izləmirlər. Bu ibtidailiyi, vəhşiliyi düşmənlərdən tutmuş, dostlara qədər hamı öyrəndi. İnformasiya yaydız, öz ağlınızla? Yoxsa oxucuların informasiya alma azadlığını təmin etdiz? Yazıqlar olsun, dəfələrlə. O saytı bağlayın, qələmi də yerə qoyun. Ölkəni bərbad günə qoyanlardan yazmağa qüdrətiniz çatmır, amma bir zavallı qadını ifşa etməklə qəhrəman olduğunuzu düşünürsüz? Siz də belə edəndən sonra... heç kimdən heç nə gözləmək olmaz...

Qadının qadından başqa düşməni yoxdur deyiblər. Məlum videoda ifşa edilmiş qadın üzünü gizlətməyə çalışır, səsi eşidilən başqa bir qadın isə (çox güman ki, kişinin qohumlarındandır) bu prosesə dəstək verir, qadını qorumur, bu hərəkətin qarşısını almağa çalışmır. Hər şeyi qoyaq bir kənara, bəs analıq? Doğrudanmı bir ana digər bir ananın ölkədə rəzil olmasına bu cür haqq qazandıra, dəstək verə bilər? Gözünü qan örtmüş, qüruru incidilmiş kişinin çılğın, ağılsız hərəkətini bəlkə də bir anlıq da olsa, anlamaq olar. Bəs bu məqamda, onun həndəvərində bir nəfər də olsun, ağıllı adam olmayıbmı?

Onun həndəvərini boş verin, ölkədə ona haqq qazandıran insanların sayı niyə bu qədər çoxdur axı? Doğrudanmı bu qədər bir-birimizin qanına susamışıq? Təkcə o qadının keçəl edildiyinə əminsizmi? Bu olay cəmiyyətin də "keçəl"ini üzə çıxardı. Üzünüz ağ olmasın...

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018



# Sellofan torbalardan imtina edirik: bəs sintetik geyimlər?

## Eyyub Hüseynov: "Rəngi çıxmırsa, pis qoxu gəlmirsə, bu geyimləri geymək olar"

**Azərbaycanda bir müddətdir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi plastik qablar və polietilen torbalardan tədricən imtina edilməsi istiqamətində işlər aparır - o cümlədən mağazalarda müştərilərə pulsuz verilən sellofan torbaların da gələcəkdə ödənişli olması ilə bağlı məsələ müzakirədədir.**

Səbəb kimi göstərilir ki, əgər həmin sellofan torbalar pullu olarsa, müştərilər ondan az istifadə edərlər. Nəticədə ekoloji mühit çirklənmədən xilas olar. Nazirliyin apardığı bu işlə bağlı müxtəlif mövqelər var. Lakin ümumilikdə ekspertlər hesab edirlər ki, atılan addımlar ekoloji mühitin qorunması baxımından müsbətdir.

Bu gün Azərbaycana sintetik materialdan hazırlanan geyimlər də gətirilir ki, onların da insan orqanizminə zərəri heç də az deyil. Xüsusilə də açıq bazarlarda ucuz qiymətə satılan bu geyimlər daha çox uşaqlara üçün təhlükəlidir. Bəs bu məsələ ilə bağlı reyd aparılırmı?

"Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, insanlar üçün sintetik məhsuldan hazırlanan üst geyimləri bir o qədər də təhlükəli deyil: "Ətraf mühiti çirkləndirən, rəngləri çıxan geyimlər əlbəttə ki, təhlükəlidir və bundan uzaq olmaq lazımdır. Lakin istehlakçı inamı deyilən bir şey var. İstehlakçının münasibətləri fərqlidir. Məsələn, biri mənə zəng edib ki, brend cins şalvar almaq istəyirəm, qiyməti çox yüksəkdir. Bu cür məsələlərə mənim yanaşmam fərqlidir. Əgər üst geyiminin rəngi çıxmırsa, sintetiki almaq olar. Yəni məsələni bu qədər qabartmaq lazım deyil ki, hər geyim təhlükəlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin apardığı işə gəlincə isə bu məsələ çoxdan öz həllini tapmalı idi. Hesab edirəm ki, inzibati yolla bu məsələni həll etmək mümkün olmayacaq. Sadəcə olaraq istehlakçılar arasında ciddi şəkildə maarifçilik tədbirləri görülməlidir. Məsələn, "Azərsun" şirkəti özünün mağazalar şəbəkəsində torbalarının qalınlığını azaldıb və üzərinə yazıb ki, yaxşı olar ki, istehlakçılar çit torbalara keçsinlər. Bu, yaxşı haldır. Yavaş-yavaş istehlakçıların özləri bunu dərk etməlidirlər. Geyimlərlə bağlı insanlar arasında fikir var ki, pambıq, yun geyimlər yaxşıdır. Lakin bu geyimlərin belə özlərinin çatışmayan tərəfləri var. Körpələr üçün, alt paltarı kimi pambıq geyimlər məsləhətlidir. Lakin ütülü saxlamaq , tez əzilmənin qarşısını almaq üçün sintetik üst geyimləri, heç də pis deyil. Əgər rəngi çıxmırsa, pis qoxu gəlmirsə sintetik məhsuldan hazırlanan üst geyimlərini qorxmadan istifadə etmək olar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Qazaxda faciə: 22 yaşlı gənc intihar etdi

**Qazax rayonunda yerli sakin özünü asaraq intihar edib. Musavat.comun "Report"a istinadən verdiyi məlumata görə, rayonun 1996-cı il təvəllüdlü Xanlıqlar kənd sakini Məmmədov Şöhrət Şükrət oğlu naməlum səbəbdən özünü asıb.**

Faktla bağlı Qazax Rayon Prokurorluğunda araşdırma aparılır.

# "Qadına münasibət dəyişməlidir"

## Kişinin arvadının başını qırxıb videoya çəkməsinə rəylər birmənalı deyil...

**Sosial şəbəkələrdə əri tərəfindən saçı qırxılan gənc qadının foto və videosu yayılıb. Videodan görünür ki, kişi həyat yoldaşının saçını qırxıb, sonra isə onu videoya çəkib. Hələlik adı və soyadı məlum olmayan kişi bunu xəyanətə görə etdiyini iddia edir. Foto və videonu həyat yoldaşının saçını qırxan kişinin özünün yaydığı bildirilir.**



Məsələyə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi münasibət bildirib. Münasibətdə qeyd edilir ki, komitənin hadisədən xəbəri var: "Məsələ nəzarətimizdədir. Həmin məsələ ilə bağlı, yaşayış yeri üzrə Monitorinq Komissiyası tərəfindən iş aparılır".

Psixoloq Fərqanə Mehmanqızı "Yeni Müsavat"a bildirib ki, hadisə hər kəsdə ikrah hissi oyadıb: "Bu gün insanların mənəviyyatında cılızlaşma gedir. İnsanlar o qədər mənəvi aclıq hissi keçirirlər ki, namus, qeyrət, vicdan və digər bu kimi insani hisslər şablona çevrilib. Hadisə sübut edir ki, bir çox ailələrimizdə insanlar yaşamaq üçün mənəvi dəyərləri unudublar. Bu videoda qadının təhqiri, qadına şiddət də var. Kimsə qadına haqq qazandırmır. Lakin hər şeydən əvvəl, hadisənin nəticəsi yox, əvvəli müzakirə olunmalıdır. O qadını xəyanətə gətirib çıxaran səbəblər də var. Hər bir hadisə, prosesin yaranma səbəbindən çox asılıdır. Videoya baxanda bilinir ki, qadın indiyə qədər nələr çəkib. Videoda bir qadın da görünür və yəqin ki, həmin qadın kişinin anasıdır. Onun başı qırxılan qadına şiddəti, daha da acınacaqlıdır. Çünki bir qadın digərinin mənəvi, maddi ehtiyaclarını bilməlidir. İnsan xəyanət edən zaman qarşı tərəfə sual verməк lazımdır; sən nə vermədin ki, o, xəyanət etdi. Xəyanətə haqq qazandırmıram. Qadın kişiyə xəyanət edirsə, deməli, artıq onu həyatında istəmir. İstəmirsə, boşanardı deyənlər də var. Lakin ailəni tanımadığımız üçün deyə bilmərik ki, həmin qadın buna cəhd edib, yoxsa yox. Hər hansı bir kişi uşağının anasını, həyat yoldaşını xəyanətdə suçlayırsa, başa düşməlidir ki, bu sözün ləkəsi özünə də dəyir. Bu gün ölkədə ailə institutu dağılır. Türklüyümüzə bağlı mənəvi dəyərlərimiz var. Qadının başından yaylığı açılan zaman, müharibələr dayanardı. Artıq bu dəyərləri itirməyə başlayırıq. Vaxtilə bəy öz xanımına "bəyim", xan öz xanımına "xanım" deyə müraciət edib. Bunu qorumaq lazımdır".

Ekspert belə hadisələrdə uşağın daha çox travma aldığını deyir: "Uşaqlar ailə tərəfindən diqqətsizlik gördükdə, bu cür "canavarlar" yetişir. Onlar isə gələcəkdə ailələrinə, yaxınlarına şiddət göstərirlər. Bir qadının başını qırxıb, videoya çəkərək yaymaq hansı mənəviyyatdan xəbər verir? Onların körpələri də var. Bəs bu uşağın şəxsiyyəti necə formalaşacaq? Sualın cavabı da özü bir faciədir. Bu gün statistika var ki, nə qədər çox qadınlar intihar ediblər. Cəmiyyət buna "dur" deməlidir. Qadına olan münasibət dəyişməli, qadının haqları qorunmalıdır".

"Yeni Müsavat"a danışan sosioloq Əhməd Qəşəmoğlu isə fərqli düşüncədədir. O hesab edir ki, əsas məsələ ailənin özünün problemidir: "Azərbaycan ailəsinə tarix boyu heç vaxt bu qədər problem yaranmayıb. Hazırda müşahidə edirik ki, ailələrimizdə çox böyük, arzuolunmaz problem yaşanır. Bəla burasındadır ki, bir çox mərkəzlər birmənalı olaraq hər zaman qadınlara qarşı zorakılıqdan danışırlar. Bura həm yerli, həm də Avropadan olan mərkəzlər daxildir. Mərkəzlər bildirirlər ki, qadınlara hüquq normaları daxilində davranmaq lazımdır. Eləcə də müşahidə edirik ki, sonuncu olayda da qadını müdafiə edənlər az deyil. Bildirirlər ki, məhkəmə var, problemi orada həll etmək lazım idi. Məsələ burasındadır ki, hadisəyə yalnız üzdən yanaşdıqda bu cür fikirləri səsləndirmək olar. Hazırda cəmiyyətimiz elə bir vəziyyətdədir ki, ümumən ailə böhran vəziyyətini yaşayır. Bu isə Azərbaycanda marağı olan düşmən qüvvələrin arzu etdikləri bir haldır. Hər hansı bir cəmiyyətdə ailə institutu zəifləyən zaman bu, ümumən ölkədə arzuolunmaz proseslərin getməsinə şərait yaradır. Ümumən ailə diqqət mərkəzinə gətirilməli olduğu halda, ancaq qadın hüquqlarından danışırlar. Bu, qəti şəkildə yolverilməz bir metoddur. Eyni zamanda tutulan bu yol olduqca dağıdıcıdır. Qloballaşmanın sürətlə getdiyi bir zamanda təbii ki, cəmiyyət dəyişib, mürəkkəbləşir. Belə zamanda kişilərin və qadınların eyni anda məlumatlanmasına, hansı çətinliklərə məruz qalamalarına diqqət etmək lazımdır. Kişilərimiz ənənəvi adət-ənənələri davam etdirmək yolunda görünürlər. Qadınları isə müəyyən mərkəzlər sanki aldadıblar ki, siz azadsınız və ürəyiniz nə istəsə edə bilərsiniz. Əslində azadlıq o demək deyil ki, ürəyin nə istəsə onu da edəsən. Azadlıq o zaman olar ki, insan öz təyinatını yerinə yetirmək üçün daha çox imkanlara malik olar".

Sosioloq söyləyib ki, bu gün Azərbaycan mühitində nə siyasətçilər, nə filosoflar tamamilə aydınlıq gətirən söhbətlər etmirlər: "Bir tərəfdə kişilər diqqətdən kənarda qalır, o biri tərəfdən də qadınlara tez-tez deyirlər ki, hüququnuz tapdanır, sizə qarşı təzyiq var, azadsınız və ürəyiniz istədiyini edə bilərsiniz. Nəticədə ailə yaddan çıxır, diqqət qadınları fəallaşdırmağa yönəlir və ailə dağılır. Ailənin özü diqqət mərkəzində olmalıdır. Qadınları yaddan çıxarıb, ancaq kişilərdə günah axtarsaq bu da dağıdıcı model olar. Dünyada belə təsəvvür yaranır ki, Azərbaycan kişiləri çox qəddardır. Halbuki, söhbət Azərbaycan ailəsindəki problemdən getməli və hər iki tərəf də maarifləndirilməli idi. Ulu babalarımızın, nənələrimizin qəbul etdikləri tabular avamlıqdan qəbul olunmayıb. Onlar da sərbəst sərgüzəştlər etdikləri üçün daha çox fiziki enerjiyə malik idi. O zaman insanlar fiziki cəhətdən indikindən daha da güclü idilər və onlar da bu cür hərəkətlər edə bilərdilər. Tabular ona görə qəbul olunub ki, cəmiyyətdə ahəngdar inkişaf yaransın, ailə institutu möhkəm olsun. Ailə hər bir insanın ilk olaraq istirahət yeridir, ilham mənbəyidir. Ailə hər bir körpəni cəmiyyətə hazırlayan məktəbdir. Bu qədər gözəl neməti "azadsan" deyib dağıtmaq düşmənçilikdir. Bu cür sərbəstliklə evə nə qədər "xəstəlik", gərginlik gəlir. Baş verən hadisələr ailədə gedən gərginliyin göstəricisidir. Müvafiq mərkəzlər, şəxslər Azərbaycan ailəsini xilas etmək yönündə düşünməlidirlər. Yalnız bir tərəfin hüquqlarını müdafiə edəcək addım atmaq fəlakətə səbəb olar".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 258 (7147) 3 dekabr 2018



# Qocalıq bundan o yana başlayır - 9 faktor, 50 əlamət

## Bu əlamətlər varsa, artıq qocalmısınız deməkdir...

**Gün ərzində tez-tez bu cümlədən istifadə edirik. Azacıq yorulanda, enerjimiz tükənəndə "Qocaldıq getdik" deyirik. Amma alimlər və həkimlər yaşlanmanın əlamətlərini müəyyənləşdirəndə bir neçə məqamı sıralayıblar.**

"Yeni Müsavat" alimlərin yaşlılıqla bağlı gəldiyi elmi nəticələri sizə təqdim edir. Ümumilikdə yaşlandıqca bədənimizdə ortaya çıxan doqquz əlamət var. Bu əlamətlər qaçılmaz yaşlanmanın təsirlərini geriyə çevirməmizi və gəncliyimizi uzatmağımızı təmin edir.

"Bioloji mənada yaşlandıqca daha yaxşıya doğru gedən bir şey bilmirəm". İspaniyadakı Beynəlxalq Onkoloji Araşdırmalar Mərkəzindən həkim Manuel Serranonun bu sözləri çox pessimistdir. Serrano "Yaşlanma İmarətləri" adlı yeni yayımlanan araşdırmanı həyata keçirən həkimlərdən biridir.

Araşdırmada mütəxəssislər zaman keçdikcə bədənimizdə yaşanan başlıca prosesləri sıralayıb. Serrano BBC-yə verdiyi açıqlamada "Bunlar qaçılmaz faktorlardır. Həyat tərzi və genetikaya bağlı olaraq bəzi insanlarda daha çox, bəzilərində də daha az görünə bilir. Amma mütləq yaşanır" dedi. Aralarında insanların da olduğu məməli canlılarda yaşlanma əlamətləri olaraq qəbul edilən doqquz faktor var:

**1.DNK-dakı zərər üst-üstə gəlir**

DNK-mız hüceyrələr arasında çatdırılan genetik kodumuzdur. Yaşlanmaqla birlikdə bu müddətdəki xətalar da artır. Ya da bu xətalar hücrələrdə yığılır. Genetik iqtidarsızlıq deyə bilinən bu olay, xüsusən DNK xətaları, özəl fəaliyyətləri olan hüceyrələrin istehsal edildiyi kök hüceyrələrə təsir etdiyi zaman daha qalıcı olur. Genetik iqtidarsızlıq kök hüceyrələrin roluna zərər verə bilir. Xətalar üst-üstə gəldikcə xərçəngli hüceyrələrə belə çevrilə bilir.

**2. Xromosomlar yorulur**

DNK zəncirlərimizin ucunda xromosomlarımızı qoruyan qapaq kimi quruluşlar var. Ayaqqabı bağının ucundakı plastik qoruyucular kimi. Bunlara telometr deyilir. Yaşlandıqca bunlar yorulur və xromosomlar qorumalarını ititirlər. Bu da yanlış bir şəkildə kopyalanmaları mənasına gəlir və problemlərə yol aça bilir. Araşdırmalar göstərib ki, telomerlərdəki pozulma ilə ağciyər fibrozu və ağır bir immunitet sistemi xəstəliyi olan aplastik anemiya arasında əlaqə var. Araşdırmaçılar telomerlərin ömrünü uzadan telomeraz adlı enzimin səviyyələrini də artırmağa nail olub. Araşdırmalarda telomerlərin ömrünü uzatmağın siçanların da ömrünü uzada biləcəyi sübut edilib.

**3. Hüceyrə davranışlara təsir edir**

Bədənimizdə DNK ifadəsi adı verilən bir müddət yaşanır. Bu müddətdə bəlirli bir hüceyrədəki minlərlə gen hüceyrənin nə edəcəyini müəyyənləşdirir. Məsələn, hüceyrənin bir dəri hüceyrəsi, yoxsa bir beyin hüceyrəsi ola biləcəyini müəyyən edir. Zaman və yaşam şəkliniz bu təlimatların necə verildiyini müəyyən edir. Bu səbəbdən də hüceyrələr etməli olduqlarından fərqli davrana bilirlər.

**4. Hüceyrə yeniləmə potensialımızı itiririk**

Hüceyrələrimizdəki xətər görmüş ünsürləri yığması üçün bədənlərimiz daimi olaraq hüceyrə ehtiyatını yeniləmə potensialına sahibdir. Ancaq bu potensial yaşlandıqca azalır. Daha sonra hüceyrələr işə yaramayan və ya toksik proteinləri yığmağa başlayır. Bunların bəziləri Alzheimer və Parkinson xəstəlikləri, eləcə də kataraktla əlaqələndirilir.

**5. Orqanizm metabolizmə nəzarəti itirir**

Zaman keçdikcə hüceyrələr yağ, şəkər kimi maddələri işləmə potensiallarını itirirlər. Hüceyrələrin alınan qidaları düzgün bir şəkildə metabolizasiya etmək qabiliyyəti itincə şəkər xəstəliyi kimi xəstəliklər ortaya çıxa bilir. Yaşlanma ilə birlikdə başlayan şəkər xəstəliyi bu səbəblə də tez-tez görülür. Daha yaşlı bədənlər artıq yenidən hər şeyi işləyə bilmir.

**6. Mitoxondrilərin fəaliyyəti dayanır**

Mitoxondri - hüceyrələrə enerji verir, amma illər keçdikcə təsirlilik gücünü itirirlər. Mitoxondrilərin yaxşı işləməməsi DNK-ya ziyan verir. Bəzi işlərdə mitoxondri fəaliyyətini təmir etməyin məməlilərdə ömrü uzatdığı nəticəsinə gəlinib. "Nature" adlı elm jurnalında iyun ayında yayımlanan bir araşdırmada mütəxəssislər siçanlardakı qırışıqları, mitoxondrilərinin fəaliyyətlərini yenidən başladaraq geriyə çevirdiyini iddia etmişdi.

**7. Hüceyrələr zombiyə çevrilir**

Bir hüceyrə həddən artıq xətər gördükcə, digər ziyanlı hüceyrələrin artmasının qarşısını alan bir vasitə olma özəlliyini itirir. Bölünməyə davam edir, amma ölmür. Senescent hüceyrə olaraq bilinən bu hüceyrələr zaman və yaşlanma ilə birlikdə yığılır. Siçanlar üzərində keçirilən araşdırmalarda bu hüceyrələri yox etmənin yaşlanmanın bəzi təsirlərini ortadan qaldırdığı da diqqət çəkib.

**8. Kök hüceyrələrin enerjisi bitir**

Yenilənmə potensialındakı azalma yaşlanmanın ən xarakterik ünsürlərindən biridir. Kök hüceyrələr yorulur və yenilənmə funksiyalarını itirirlər. Son illərdə aparılan araşdırmalar kök hüceyrələri gəncləşdirmənin, bədənin yaşlanmanı göstərmə formasını geriyə çevirdiyini göstərir.

**9. Hüceyrələrin bir-biri ilə əlaqəsi sona çatır**

Hüceyrələr daim bir-birilə əlaqədədir, amma bu potensial zamanla azalır. Bu da iltihablanmada artıma yol açır və "dialoqun" qarşısındakı problemləri böyüdür. Nəticə olaraq, patogenlərin və anormal hüceyrələrin varlığına qarşı həssaslıqlarını itirirlər.

Serrano yaşlanma prosesi ilə bağlı çalışmaların tibbin orqan və toxumalardakı pozulmanı yavaşladacaq üsulları təmin edə biləcəyini deyir. Bundan başqa, yaşlanma qaçılmaz olsa da, "sağlam həyat tərzi ilə" təsirlərini azalda biləcəyini vurğulayır. Bu günlərdə yaşlı insanların həyatı bir neçə onilliklər öncəsi ilə müqayisədə daha sağlamdır. Edə biləcəyiniz ən yaxşı şey yaşlandığınız zaman da həyatdan zövq almaqdır.

**Bu 50 əlaməti unutmayın - qocalıq bu zaman başlayır**

İngiltərədə 50 yaşdan yuxarı insanlara sığorta xidməti təklif edən bir şirkətin iki min nəfər arasında keçirdiyi sorğuda maraqlı nəticələr ortaya çıxıb. Sorğuda iştirak edən hər on nəfərdən səkkizi "Hamı hiss etdiyi yaşdadır" desə də, psixoloqlar verilən cavablar əsasında qocalmağa başlayanların 50 ortaq əlamətini müəyyən edə bilib.

Həmin 50 əlamətlə tanış olmağa necə baxırsınız? Bəlkə siz də qocalmaq üzrəsiniz?

- Bədəninizin hansısa yerinin tez-tez tutulması
- Əyiləndə ağrımaq
- "Mən cavan olanda belə deyildi" demək
- Saçların tökülməyi
- "Bizim vaxtımızda..." ilə başlayan cümlələr qurmaq
- Tez-tez küsmək
- Radioların Top-10 siyahısındakı heç bir mahnını bilməmək
- Səs-küyə əsəbiləşmək
- Oynaqların ağrımağından şikayətlənmək
- Belinə ağırlıq düşəcək deyə ağır əşyalar qaldırmamaq
- Tez-tez əşyalarını itirmək
- Televiziyada gənclər üçün nəzərdə tutulan verilişlərə baxmamaq
- Avtomobili yavaş sürmək
- Əşyaları hara qoyduğunu unutmaq
- Gecə əyləncələrindən çox evdə oturub nərd, domino oymağa üstünlük vermək
- Bir əşyadan ehtiyat üçün bir neçə dənə almaq
- Tarixi televiziya verilişlərinə maraq göstərmək
- Qonaq gedəndə başmaq, yaxud isti paltar götürmək
- Köhnə mahnılar verilən radiostansiyalara qulaq asmaq
- İçkidən tez sərxoş olmaq, daha doğrusu, bir stəkan içkidən sonra yatmaq
- Çölə çıxanda qalın geyinmək
- Tez kökəlib-tez arıqlaya bilməmək
- Bir cüt corab hədiyyəsinə də sevinmək
- Bəzən bir stəkan çayı hər cür içkidən üstün tutmaq
- Yola çıxanda termosda çay götürmək
- Tanımadığı həmyaşıdlarla rahat dil tapmaq
- Bağ, həyət işləri ilə maraqlanmaq
- Üzdəki qırışları azaltmaq üçün kremlər almaq
- Məqsədsiz, lazımlı və ya lazımsız olmağına baxmayaraq əşyaları yığmaq, bəzən gizlətmək
- Hava proqnozuna uyğun geyinməyə çalışmaq
- Qulaqların, burnun tüklənməyə başlaması
- İnsanların adını yaddan çıxarmaq
- Polisə, həkimlərə, müəllimlərə "dünənin uşağı" kimi baxmaq
- Televizorun qabağında yuxulamaq
- Günorta yuxusuna ehtiyac hiss etmək
- Gənclərin nədən danışdığını başa düşməmək
- Texnoloji alətlərin istifadəsində çətinlik çəkmək
- Tablet kompüterlər, sensor ekranlı, smart telefonları işlədə bilməmək
- Daha çox şikayət etmək
- Eynəyi boyundan asmaq
- Yeni müğənniləri tanımamaq
- Televiziya verilişlərinin keyfiyyətindən şikayət etmək
- Evdəki əşyaların yerlərini tez-tez səhv salmaq
- Quş, yaxud hər hansı ev heyvanı saxlamaq
- Gənclikdə oxuduğu kitabları yenidən oxumaq
- Qulaqların böyüməsi
- Tarixi əsərlərin, abidələrin qorunmağının vacibliyi vurğulamaq
- Bəzən etik qaydaları yaddan çıxarıb, ürəyindən keçənləri qarşısındakının üzünə demək
- Daha çox məsləhət vermək
- Tez-tez gəncliyindəki məzəli, gülməli əhvalatları danışıb gülmək

**Bu da qadınların gizli qocalıq xəbərçiləri**

Alimlər qadınlarda qocalma prosesini göstərən bir neçə əlaməti açıqlayıblar. Sürətli qocalmanın təkcə 80 faizi xarici nizamlayıcı, 20 faizi isə hüceyrələrin genetikası ilə bağlıdır. Qadın orqanizmində qocalma prosesinin başlanmasını xəbər verən 6 əlamət mövcuddur. Bunlardan heç olmasa birini özündə hiss edən qadın həyəcan təbili çalmalı və problemin həllini axtarmalıdır. Əks halda, mənfi nəticə zəncirvarı reaksiya verə bilər.

Qadın orqanizmində ilkin pozulmalardan biri hormon zədələnməsidir. Bu, özünü əsasən menstruasiya dövrünün qeyri-müntəzəmliyində, bu zaman baş verən qeyri-adi hallarda göstərir. Nazikləşmiş göz qapaqları qadının yuxusuzluqdan, yorğunluqdan əziyyət çəkməsindən xəbər verir. Saçların kütləvi tökülməsi endokrinoloqa müraciət etməyə məcbur edəcək. Nəticədə qalxanabənzər vəzinin fəaliyyətində yaşla bağlı patologiyalar aşkarlanacaq. Bundan başqa, alimlər xüsusilə diqqətə çatdırırlar ki, qocalıq barədə dəri dərhal xəbər verir. Bu zaman bürüşüklük, şişkinlik, piqmentin dəyişməsi baş verir.

Yuxusuzluq ayrıca yer tutur. Mütəxəssislərin fikrincə, qocalıq əlamətlərindən biri üzə çıxan zaman bərpa olunmayan proseslərin başlanmasını gözləməkdənsə, bunun qarşısını almaq məsləhətdir. Axı orqanizmin qocalmasına meyllilikdə genetik xüsusiyyətlər yalnız 20 faiz aktualdır, yerdə qalanlar isə xarici amillərdir.

❑ Sevinc TELMANQIZI,
"Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 258 (7147) 3 dekabr 2018



# Kral ailəsində gərginlik

**Şahzadə Harrinin hamilə həyat yoldaşı Meqan Markl evdə doğuş keçirmək variantlarını gözdən keçirir. O, bununla bağlı həkimlərlə də məsləhətləşir. Mənbənin sözlərinə görə, o, ailənin digər qadınlarından seçilməyə çalışır.**

İndi o, əri ilə birlikdə Londondakı Müqəddəs Məryəm Xəstəxanasına alternativlər axtarırlar. Həmin xəstəxanada şahzadə Diana və Keyt Middlton öz övladlarını dünyaya gətiriblər. Mümkün yerlərdən biri isə cütlüyün Vindzordakı malikanəsidir. Ənənələrə görə, doğuşdan bir neçə saat sonra yenicə ana olan Meqan küçəyə çıxmalı, britaniyalılar da yeni doğulan körpəni salamlamalıdır. Bu səbəbdən də əgər Meqan Markl evdə doğuş variantını seçsə, Britaniya kral ailəsinin qanunlarını tapdamış olacaq.

Bu ilin sentyabrında Meqan onsuz da kral ailəsinin önəmli bir etiket qaydasını pozmuşdu. O, rəsmi tədbirlərdən birində maşından düşərkən, qapını özü bağlamış və məsul şəxsin bunu etməsinə imkan verməmişdi.

# Bu tum bizi xərçəngdən qoruyur

**Amerikanın İllinoys Universitetinin alimlərinin araşdırmalarına görə, günəbaxan tumu süd vəzi, yumurtalıq, bağırsaq, dəri və ağ ciyərdə bəd xassəli şişlərin inkişafına mane ola bilir. Tumlardakı folium turşusu və vitamin B6 şişlərin qarşısını alır. Günəbaxan tumları həmçinin dəridəki sızanaqları da aradan götürür.**

Günəbaxan Kolumb Amerikanı kəşf etdikdən sonra Avropaya bəzək bitkisi kimi gətirilib. Günəbaxan tumunun bioloji dəyəri ət və yumurtadan yüksəkdir. Tumda olan çoxlu miqdarda amin turşuları orqanizmdə maddələr mübadiləsini tənzimləyir, xolesterinin səviyyəsini normada saxlamağa yardım edir, aterosklerozun və miokard infarktının qarşısını alır. Günəbaxan tumunda ürəyin və beynin normal işləməsi uçün vacib olan fosfor, maqnezium və kalium da var. E vitamini güclü antioksidantdır, xərçəng əleyhinə fəaliyyət göstərir, orqanizmi aterosklerozdan və müxtəlif cür şüalardan qoruyur. E vitamininə gündəlik tələbatı ödəmək üçün 50 qr günəbaxan tumu yemək kifayətdir.



# Amerikandan amerikan olmasının sübutunu tələb etdilər

**Kolumbiyada nikahları qeydə alma bürosu Nyu-Meksiko ştatı sakini Qevin Klarksonu xarici vətəndaş kimi qəbul ediblər və ondan ABŞ-da belə bir məkanın olmasını sübut etməsini tələb ediblər. Bu barədə lenta.ru saytı xəbər verib.**

Klarkson öz nişanlısı ilə münasibətlərini rəsmiləşdirmək istəyib və buna görə nikahların qeydiyyat bürosuna müraciət edib. Sənəd olaraq da o, Nyu-Meksiko ştatında ona verilən sürücülük vəsiqəsini büroya təqdim edib. Amma nikah qeydiyyatı bürosunun əməkdaşları onu xarici ölkə vətəndaşı kimi qəbul edərək, beynəlxalq pasport istəyib. Hətta Klarksonun etirazı büro rəhbəri tərəfindən qəbul edilməyib. Amma Klarkson bu işdən vaz keçməyib və son nəticədə belə bir ştatın varlığı təsdiqlənib, kişidən üzr istəyiblər və nikah üçün qeydiyyatını həyata keçirdilər.

Nyu-Meksiko Amerikanın cənub-qərbində yerləşir. 1821-ci ildə isə ştatın ərazisi Meksika imperiyası sərhədlərinə daxil olub. 1846-cı ildə isə Amerika-Meksika müharibəsindən sonra Amerikanın sərhədlərinə daxil edilib. Ştat statusunu isə 1921-ci ildə qazanıb.





# Qadınlar ayrıla bilir, kişilər isə yox

**Kişilərin ayrılmağı qadınlar qədər yaxşı bacarmadığı məlum olub. İngiltərədə ayrılıqdan əziyyət çəkən kişilərə kömək etmək üçün çalışan sheleft.me adlı internet saytının araşdırmaları nəticəsində qəribə həqiqət aşkara çıxıb.**

Araşdırma nəticələrinə görə, qadınlar ayrılmaq haqqında daha tez qərar verirlər və kişilərdən daha tez vaz keçirlər. Kişilər üçün isə vəziyyət eyni cür deyil. Qadınlar ayrılıq qərarını 6 gün ərzində versələr də, kişilər bu qərarı vermək üçün bir ay düşünürlər. Mütəxəssislərin sözlərinə görə, qadınlar qarşılarındakı insana daha çox hörmət edirlər və onların daha az əziyyət çəkmələri üçün qısa və tez qərarlar verirlər. Kişilər isə uzun müddət ayrılmaq istədiklərini necə açıqlayacaqlarını düşünürlər. Qərar verdikdən sonra isə tək qalmaqdan qorxduqları üçün ayrılmağı bir ay uzadırlar.




**QOÇ** - Qidanıza fikir verin. Astroloji göstəricilər maliyyə durumunuzun yaxşılaşacağını bəyan edir. Münasibətlər zəminində isə vəziyyət bir qədər gərginləşə bilər. Mübahisədən yayının.

**BUĞA** - Maraqlı sövdələşmələr aparmaq üçün kifayət qədər məhsuldar gündür. Qarşı tərəf sizin bütün təkliflərinizə müsbət rəy bildirəcək. Amma gərək lovğalıqdan uzaq olasınız.

**ƏKİZLƏR** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyətə yönəldəsiniz. Çünki digər sahələrdə xoşagəlməz hadisələr mümkündür. Pulla bağlı bütün planlarınızı təxirə salın. Uzaq yola çıxmayın.

**XƏRÇƏNG** - Nəhayət ki, neçə gündən bəri davam edən üzüntülü anlarınız arxada qalacaq. Təxminən saat 11-dən etibarən şəxsi işlərinizdə böyük dönüş baş qaldıracaq. Çətinlikdən qorxmayın.

**ŞİR** - Təxminən saat 16-ya qədər gərgin situasiyalarla üzləşə bilərsiniz. Odur ki, oturub-durduğunuz adamların kimliyini götür-qoy edin. Etibar etmədiyiniz kəslərə mühüm sirlərinizi verməyin.

**QIZ** - Həddindən ziyadə yorğun bir gün yaşamalı olacaqsınız. Üzərinizə düşən vəzifələrin məsuliyyətini dərk etməyə çalışın. Həmkarlarınızla yerli-yersiz mübahisəyə girişməyin.

**TƏRƏZİ** - İki gündən bəri mənfi enerjili Ay bürcünüzdə olsa da, bunun nəzərdə tutduğunuz işlərin həyata keçməsinə maneçiliyi olmayacaq. Əksinə, bütün planlarınız reallığa yaxınlaşacaq.

**ƏQRƏB** - Sevindirici hadisələr yolunuzu gözləyir. Ola bilsin ki, ağlınıza gətirmədiyiniz istiqamətdən işgüzar təkliflər də alasınız. Vaxtınız olsa, müqəddəs yerlərə mütləq baş çəkin.

**OXATAN** - Ünsiyyətdə olduğunuz hər bir kəslə, ələlxüsus da doğmalarınızla mehriban davranın. Nəzərə alın ki, qarşılıqlı hörmət sizə səmərə verə bilər. Qaranlıq havada daha çox evdə olun.

**OĞLAQ** - İxtiyarınızda olan bu təqvimdən qeyri-adi heç nə gözləməyin. Necə deyərlər, başınızı aşağı salıb adi işlərlə məşğul olun. Hər dedi-qoduya ciddi yanaşmayın. Soyuqdan qorunun!

**SUTÖKƏN** - Bir qədər problemli gün hesab etmək olar. Çünki bir tərəfdən səhhətinizdə çətinliklər, digər tərəfdənsə pulsuzluq ovqatınızı korlaya bilər. Heç olmasa münasibətləri tənzimləyin.

**BALIQLAR** - İş üslubunda dönüş yaratmaq üçün şanslarınız artacaq. Bunun üçün ilk növbədə ədalət prinsiplərinə riayət etməyiniz tələb olunur. Özünüzü həmkarlarınızdan daha üstün tutmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Uşaqsız ailələr daha xoşbəxtdir - iddia

**Uşaqlı ailələrdən fərqli olaraq, uşaqsız ailələrdə ər və yaxud arvad bir-birlərinə daha çox dəyər verdiyindən ailə münasibətlərindən məmnundurlar. Evli cütlüklərin çoxu ilk övladlarının dünyaya gəldiyi günü həyatlarının ən xoşbəxt günü kimi xatırlayırlar.**

Məlumata görə, dünya alimlərinin elmi araşdırmalarının nəticələri isə məhz uşaqsız nikahların daha xoşbəxt olduğunu deyir. Britaniya universitetinin keçirdiyi sorğu göstərib ki, uşağı olmayan kişi və qadınlar özlərini nikahda daha yaxşı hiss edirlər, uşaqlı ailələrdən fərqli olaraq ər və yaxud arvad bir-birlərinə daha çox dəyər verdiyindən ailə münasibətlərindən məmnundurlar. Psixoloqların və sosioloqların suallarını 5000-dən çox insan cavablandırıb. Valideyn olanlardan fərqli olaraq, uşaqsızlar bir qayda olaraq öz nikahlarını yüksək qiymətləndiriblər.

Övladsız cütlüklər bir-birlərinə daha çox vaxt ayırmağa, daha çox danışmağa, eşitməyə, birlikdə gəzməyə hazırdırlar. Anaların və ataların isə, sadəcə, buna vaxtları çatmır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU
Lisenziya N: B 114
SAYI: 5.100

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dəqiqə” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.